www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 may 2015-ci il Cümə axşamı № 109 (6137) Qiyməti 40 qəpik

**Xəbər**

**Vergilər Nazirliyi Anar Məmmədovun şirkətinin vergidən yayındığını açıqladı**

yazısı səh.2-də

**Gündəm**

**Bütün gözlər yanmış binada...**



Sakinlər qan ağlayır, rəsmilər söz verir; "İki dəqiqəyə qara qatı tüstü binanı bürüdü, kəlmeyi-şəhadəti oxudum..."

yazısı səh.6-da

**Müxalifət prezidentdən gözlədiyini niyə özü etmədi...**

yazısı səh.4-də

**Hüquq müdafiəçisi 28 mayda əfv olacağına ümidlidir**

yazısı səh.8-də

**"Avesta"dan Hacı İbrahimlə bağlı xəbərlərə cavab gəldi**

yazısı səh.5-də

**Müsavatda daha bir Vurğun Əyyub qalmaqalı**

yazısı səh.3-də

**Şərqi Avropa uğrunda ABŞ-Rusiya savaşı böyüyür**

yazısı səh.8-də

**Facebook məsuliyyət yaradırmı...**

yazısı səh.3-də

*Xoşqədəm Hidayətqızı:*

**"Mən iddialı, karyera düşkünü olan xanımam"**

yazısı səh.10-da

**Üzlükləri yanan şirkəti Beynəlxalq Banka nə bağlayıb?**

yazısı səh.11-də

**Yanğın zamanı sağ qalmaq üçün nə etməli...**

yazısı səh.12-də

**Ermənilər NATO tədbirində lağ obyekti oldular**

yazısı səh.15-də

**Bakıda maşın ağaca "dırmaşdı"**

yazısı səh.14-də

**Arıqlamaq insanı öldürə bilər...**

yazısı səh.14-də

## Bakı-Qərb münasibətləri qırılma həddində

# İLHAM ƏLİYEVİN AVROPA BİRLİYİNƏ QARŞI DEMARŞI - NƏ BAŞ VERİR ...

Azərbaycan prezidenti son anda Avropa Birliyinin tərəfdaşlıq sammitinə qatılmaqdan vaz keçdi; Avropa Oyunları məsələdə nə dərəcədə aparıcı rol oynayıb; ölkə başçısının qərarının pərdəarxası bu yazıda...



yazısı səh.9-da

## Yanan bina "böyük başları" aparacaq - ikisinin adı məlum...

Prezidentdən komandasını silkələyən bəyanatlar; yanğınla bağlı Dövlət Komissiyasını toplayan dövlət başçısı "heç kim cəzasız qalmayacaq" dedi; "odda yanmaz, suda batmaz" Abutalıbovun son limitini "yandırdığı" iddia olunur...

yazısı səh.5-də



*Vahid Əhmədov:*

**"Bu, bir şirkətin bir binanı üzləməsi məsələsi deyil"**

yazısı səh.7-də



**Yanğından qurtulan jurnalist Sevinc Fədai: "Körpəmi basdım bağrıma..."**

yazısı səh.11-də



*Əkrəm Həsənov:*

**"Konstitusiya Məhkəməsinin qərarına görə krediti ödəməmək olar"**

yazısı səh.3-də

**19 may 2015**

YENİ MÜSAVAT
N 109 (6137) 21 may 2015

# "Azərbaycanda toxunulmaz insan yoxdur"

## İlham Əliyev: "Bütün böyük tədbirlər bu faciə qarşısında heçə bərabərdir"



**"Bələdiyyə də, necə deyərlər, yerli icra başçılarının filiallarına çevrilib. Bələdiyyənin öz səlahiyyəti var, indi mən o fəaliyyəti görmürəm. Bütün bölgələrdə, kəndlərdə, şəhərlərdə görülən işlər dövlət büdcəsi hesabına görülür. Bələdiyyə bir kənd yolunu tikib? Halbuki bu, bələdiyyənin bilavasitə işidir". APA-nın məlumatına görə, bunu dünən Azərbaycan prezidenti İlham Əliyev Bakıda baş verən yanğınla əlaqədar yaradılan Dövlət Komissiyasının ilk iclasında çıxışı zamanı söyləyib.**

Dövlət başçısı deyib ki, bütün kənd yolları dövlət büdcəsi, yaxud Prezidentin Ehtiyat Fondu hesabına tikilir: "Bələdiyyə, sadəcə, bir möhür idarəsidir. Yəni qanunsuz əməllərə ştamp qoysun! Bu məsələ də prokurorluq tərəfindən araşdırılmalıdır, buna son qoyulmalıdır. Soruşuram ki, bu qanunsuz binalar haradan meydana gəlib, heç kim bilmir. Bu, mümkün deyil. Bu yanğın da bu mənbədən qaynaqlanan hadisədir. Qanunsuzluğa, özbaşınalığa son qoyulmalıdır. Gələcəkdə belə bədbəxt hadisələrin təkrarlanmaması üçün Dövlət Komissiyasının üzvləri mənə konkret təkliflər versin. Bir balaca bina da icazəsiz tikilə bilməz. Əgər bundan sonra bu olacaqsa, nəinki işdən çıxaracam, onlar cinayət məsuliyyətinə də cəlb ediləcəklər. İndi Azərbaycan ictimaiyyəti də görür ki, Azərbaycanda toxunulmaz insan yoxdur. Cinayət törədibsə, vəzifədən asılı olmayaraq məsuliyyət olmalıdır. Dəfələrlə demişəm ki, vəzifəli şəxslər özlərini normal aparsınlar, insanlarla ünsiyyət qursunlar, insanları incitməsinlər, özləri, ailə üzvləri qanunu pozmasınlar. Amma nə görürəm? Yenə də mənim göstərişlərimi icra etməyənlər var. Nəticə nə olur? Onlar özləri də bədbəxt olurlar".

**Prezident İlham Əliyev bildirib ki, Azərbaycan ictimaiyyəti hər şeyi bilir:** "Heç kim qanundan kənar qala bilməz, bir nəfər belə toxunulmaz deyil".

**Dövlət başçısı çıxışının sonunda xəbərdarlıq edib:** "Bu gün bir daha bütün dövlət məmurlarına, dövlət qurumlarında çalışanlara xəbərdarlıq edirəm. Qanuna hər kəs əməl etməlidir, heç kim məsuliyyətdən qaça bilməyəcək. Bu bədbəxt hadisənin səbəbkarları da mütləq məsuliyyətə cəlb ediləcək, ədalət bərpa ediləcək".

**Baş nazirin müavini Abid Şərifov iclasda deyib ki, bu cür fasad örtüyü olan binalar BŞİH-in, FHN-in, DİN-in və "Azərişıq" ASC-nin nəzarətinə götürüləcək:** "Əgər icazəniz olarsa, bu cür binaların örtüklərinin sökülməsinə Avropa Oyunlarına qədər başlamayaq. Çünki Avropa Oyunlarına 20 gündən artıq vaxt qalıb və bu cür binalarda örtükləri bu müddət ərzində söküb yenisi ilə əvəz etmək mümkün olmayacaq".

**Şərifovun bu təklifinə cavab olaraq prezident deyib:** "Bunun Avropa Oyunları ilə heç bir əlaqəsi yoxdur. Söküb bərpa etməmək də olar. Avropa Oyunları və başqa böyük tədbirlər bu cür faciə qarşısında heçə bərabərdir. Bu cür üzlüklərlə üzlənən binalardan dərhal nümunələr götürülməlidir. Əgər orada təhlükə varsa, oda davamlı deyilsə, dərhal sökülməlidir. Bunu maksimum 1-2 həftəyə etmək olar".

## Bakıda polis rəisi öldü



**Paytaxt Bakıda polis polkovniki dünyasını dəyişib. ANS PRESS-in məlumatına görə, Daxili İşlər Nazirliyinin şöbə rəisi, polis polkovniki, 1964-cü il təvəllüdlü Elsevər Hüseynov vəfat edib. Onun uzun sürən xəstəlikdən sonra dünyasını dəyişdiyi bildirilir. Qeyd edək ki, Elsevər Hüseynov 1986-cı ildə Texniki Universiteti bitirib. Mərhum 1990-cı ildən Daxili İşlər Nazirliyində çalışıb. Bir çox əməliyyatlarda iştirak edib. O, təltif və mükafatlara layiq görülüb.**

## Ukrayna savaşa hazırlaşır


Pyotr Poroşenko

**Ukrayna hazırda Rusiya ilə əsl müharibə şəraitində yaşayır və xalqımız Rusiyanın hücumuna hazırlaşır. ANS PRESS-in məlumatına görə, bunu Ukrayna Prezidenti Pyotr Poroşenko deyib. O bildirib: "Mən prezident Vladimir Putinə inanmıram. Onunla danışıqlar aparmaq mənasızdır, ancaq bundan başqa yol da yoxdur."**

Onun sözlərinə görə, Ukraynanın şərqindəki əraziləri separatçılardan təkcə hərbi yolla almaq mümkün deyil. Bu məsələdə diplomatiyadan da istifadə etmək mümkündür.

## Azərbaycan Fransaya nota verdi

**Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin nümayəndəsi Bako Saakyan və onu müşayiət edən şəxslərin 17-19 may 2015-ci il tarixində Fransaya səfəri ilə əlaqədar Fransanın Azərbaycandakı səfiri Paskal Mönye mayın 20-də Xarici İşlər Nazirliyinə çağırılıb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev APA-ya bildirib ki, Xələf Xələfov tərəfindən Fransa səfirinə etiraz notası təqdim edilib.

X. Xələfov tərəfindən bu kimi faktların, eləcə də Fransa Milli Məclisinin deputatlarının bu ilin 3 may tarixində qondarma rejimin "parlamenti"nə keçirilmiş "seçkilər"də "müşahidəçi" kimi iştirakının Azərbaycanla Fransa arasında inkişaf etməkdə olan dostluq və tərəfdaşlıq münasibətlərinin ruhuna, eləcə də Fransanın ATƏT-in Minsk Qrupunun həmsədri kimi mandatına uyğun gəlmədiyi və Ermənistan-Azərbaycan münaqişəsinin həllinə xələl gətirdiyi qeyd olunub.

İkili standartların təzahürü kimi qiymətləndirilən bu kimi halların Azərbaycanla Fransa arasındakı münasibətlərin mövcud vəziyyətinə də mənfi təsir etdiyi diqqətə çatdırılıb.

Səfir P. Mönye təqdim olunan notanın və Azərbaycanın ciddi narahatlığının ölkəsinə çatdırılacağını bildirib.

## "Bu, vətəndaş qərarı idi"

**19 may tarixində Bakı şəhərinin Binəqədi rayonundakı yaşayış binasında baş verən faciəli yanğınla əlaqədar həmin gün ANS TV-də yayımlanan "Maşın" realiti-şou efirə getməyib. Verilişin aparıcısı Murad Dadaşov yağında həyatını itirən və yaralanan şəxslərə hörmət əlaməti olaraq bu cür qərar verdiyini deyib.**

Məsələ ilə əlaqədar tanınmış şoumen "Yeni Müsavat"ın əməkdaşına danışıb: "Bu, vətəndaş qərarı idi, başqa cür də ola bilməzdi. Mən həm öz adımdan, həm verilişin əməkdaşları, iştirakçıları adından dünyasını dəyişən insanların ailələrinə başsağlığı verir, səbr diləyirəm. İnanıram ki, dövlət tərəfindən həm dünyasını dəyişən insanların, həm yaralıların yaxınlarına, ailələrinə lazımi yardımlar ediləcək".

**Murad Dadaşov yanğına səbəb olan, binalara estetik görünüş üçün çəkilən poliuretan üzlüklərdən də danışıb:**"Həmin üzlüklərin tərkibi barəsində məlumatım yoxdur. Lakin düşünürəm ki, xalqımızın səhhəti, sağlamlığına zərər verəcək maddələr bir daha mövcud olmayacaq, müvafiq qurumlar bu məsələ ilə daha ciddi məşğul olacaq".

Qeyd edək ki, faciəli yanğın baş verən ərəfələrdə milli televiziyanın əksəriyyət kanallarında əyləncəli verilişlər davam etdirilib, bir çox tanınmış şou nümayəndələri tərəfindən canlı yayımda ritmik mahnılar təqdim edilib.

❑ Xalidə GƏRAY

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## Vergilər Nazirliyi Anar Məmmədovun şirkətinin vergidən yayındığını açıqladı

**"Transqeyt" MMC-nin vergidən yayındığı məlum olub. "APA-Economcs" xəbər verir ki, bu barədə məlumat Vergilər Nazirliyinin dərc etdiyi vergi borcunu ödəməyən vergi ödəyicilərinin siyahısında qeyd olunub. Məlumata əsasən, qanun pozuntusu Bakı Vergilər Departamentinin əməkdaşları tərəfindən aşkarlanıb. Vergi ödəyicisi Bakı şəhəri Nərimanov rayonunda qeydiyyatdadır. Vergi borcunun həcmi açıqlanmır. MMC-dən məsələyə münasibət bildirmək istəmədilər.**




## Həbs olunan iş adamının obyektləri ilə bağlı nazirlikdən açıqlama

**Səhiyyə Nazirliyi "Riyad-Farm" MMC-yə verilmiş lisenziyanı geri almayıb. Şirkət ona məxsus aptekləri öz istəyi ilə bağlayır. Bunu virtualaz.org-a Səhiyyə Nazirliyindən bildiriblər. Nazirlikdən qeyd ediblər ki, nazirlik tərəfindən "Riyad-Farm"MMC ilə bağlı araşdırma aparılmayıb.**

Qeyd edək ki, "Riyad-Farm" MMC mayın əvvəlindən Bakıda və bölgələrdəki apteklərinin fəaliyyətini dayandırır. Şirkətə məxsus apteklərdən virtualaz.org-a bildiriblər ki, apteklərin bağlanmasına səbəb şirkətin müflisləşməsidir. Belə ki, martın əvvəlindən dərman qıtlığı yaranıb: "Sifariş verilən dərmanların gətirilməsində problemlər yaranmışdı. Satıcıların isə mart, aprel aylarının maaşları verilməyib. Bəzi apteklərdə çalışanlar 3 aylıq əmək haqqını ala bilməyib. Lakin işçilərdən əlaqə nömrələri götürülüb, problem həll olunandan sonra maaşların ödəniləcəyinə söz verilib. Aptek və bazadakı yerdə qalan dərmanlar dəyər-dəyməzinə satışa çıxarılacaq".

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, "Riyad-Farm" əczaçılıq şirkətinin sahibi Həsən Şərifov və şirkətin icraçı direktoru Aqil Quliyev dörd gün öncə saxlanılıb.

Onlar Beynəlxalq Bankdan külli miqdarda kredit götürənlərdir. "Riyad-Farm" son günlərə kimi əczaçılıq bazarında qabaqcıl distribütorlardan biri olub. Şirkət beynəlxalq əczaçı şirkətləri ilə bağladığı birbaşa müqavilələr əsasında dərman vasitələrini Azərbaycan bazarına gətirən ən böyük idxalçılardan biridir.

"Riyad-farm" 1998-ci ilin mart ayında təsis edilib. Şirkətin Bakı, Sumqayıt, Mingəçevir, Gəncə, Lənkəran, Şirvan, Quba, Cəlilabad və Biləsuvarda 20-dən çox filialı və 40 aptekdən ibarət şəbəkəsi fəaliyyət göstərib. Bundan əlavə, "Riyad-Farm" tərəfindən gətirilən 5000-ə yaxın dərman preparatı və tibbi ləvazimatları apteklərə paylanıb. Şirkətin 2414 nəfər işçisi olub.

## Özünü yandıran Qarabağ veteranı öldü

**Cəlilabad Rayon Polis İdarəsinin qarşısında dünən axşam özünü yandıran Qarabağ müharibəsinin və 20 Yanvar hadisəsinin iştirakçısı Mirtahir Miradil oğlu Mürsəlov dünən ölüb. Məlumatı modern.az saytına onun qardaşı Mirkamil verib.**

Müharibə iştirakçısı Mirtahir Mürsəlovun özünə qəsd etməsinə səbəb rayon rəhbərliyinin onun problemlərinə biganəliyi olub.

Mirtahir Bakı şəhərindəki 5 nömrəli xəstəxananın yanıq şöbəsinə yerləşdirilmişdi.

Allah rəhmət eləsin...



## Putinin azərbaycanlı müşaviri vəfat etdi

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Kaluqa vilayəti üzrə mədəniyyət məsələləri müşaviri, azərbaycanlı rəssam 75 yaşlı Sadıq İman oğlu Bağırov dünyasını dəyişib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən «Trend»ə verilən məlumata görə, mərhumla vida mərasimi Azərbaycan, Tatarıstan və Dağıstan diasporunun nümayəndələrinin iştirakı ilə Kaluqa şəhərində keçirilib və onun nəşi Kaluqanın Litvinski məzarlığında torpağa tapşırılıb.

Tanınmış ictimai xadim S.Bağırov 1940-cı ildə Bakı şəhərində anadan olub, 1978-ci ildən Kaluqada yaşayır. Rusiya Rəssamlar İttifaqının üzvü olan S.Bağırov şəhər, vilayət və respublika sərgilərinin iştirakçısı idi. Yaratdığı onlarla rəsm əsəri hazırda Azərbaycan, Rusiya, Ukrayna, ABŞ, Fransa, İtaliya, Almaniya, keçmiş Yuqoslaviya ölkələri, Polşa və Braziliyada şəxsi kolleksiyalarda saxlanılır.

Allah rəhmət eləsin!

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 109 (6137) 21 may 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# “Konstitusiya Məhkəməsinin qərarına görə krediti ödəməmək olar”

## Əkrəm Həsənov: “Necə sübut edəcəklər ki, bank 5000 dollar kredit üzrə güzəşt etmək üçün maliyyə imkanına malik deyil?”



**“Banklara dollar kreditləri olanlar indi ilk növbədə Konstitusiya Məhkəməsinin qərarına hörmət etməlidir. Nəinki qərarın hərfi mənasına, həmçinin hakimlərin məntiqinə”. Hüquqşünas Əkrəm Həsənov Konstitusiya Məhkəməsinin dollar kreditləri ilə bağlı qərarından vətəndaşların xeyrinə çıxarılan nəticədən danışıb.**

“Nəinki bu məntiqə hörmət etsinlər, həmçinin həmin məntiqi rəhbər tutsunlar”,- deyə o bildirib. Ekspert qeyd edib ki, vətəndaşlar qərarın 6-cı bəndinə əsaslanaraq hərəkət etsinlər. Orada deyilir: “Əhalinin maraqlarını nəzərə alaraq, xarici valyutada verilmiş kreditlər üzrə kredit müddətinin uzadılması, faiz dərəcələrinin aşağı salınması və digər güzəştli şərtlərin tətbiqi üzrə tədbirlərin bankların maliyyə imkanlarından asılı olaraq həyata keçirilməsi məqsədəmüvafiq hesab edilsin”. Xatırladıram ki, Konstitusiyanın 130-cu maddəsinin IX hissəsinə əsasən Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan ərazisində məcburi qüvvəyə malikdir. Deməli, sözügedən 6-cı bəndin məcburi qüvvəsi var”.

**Ekspert qeyd edib ki, həmin bənd ilk növbədə əhalinin maraqlarının nəzərə alınmasını tələb edir:** “Buna görə də borc alan yubanmadan artıq bazar ertəsi getsin banka və təxmini belə məzmunlu ərizə yazsın. Mənim marağım ondan ibarətdir ki, 5000 dollar qalıq borcum üçün kredit müddəti 2 il əvəzinə 12 olsun, faiz dərəcəsi isə 30 faiz əvəzinə 3 faiz olsun və "digər güzəştli şərt" qismində müəyyən olunsun ki, kredit müddəti ərzində krediti istənilən dövriliklə qaytara bilərəm. Tələb edirəm ki, KM qərarının 6-cı bəndi əsasında kredit müqaviləsinə düzəliş edəsiniz".

**Ə.Həsənovun sözlərinə görə, bank cavab verəcək ki, Konstitusiya Məhkəməsinin qərarının 6-cı bəndinə əsasən, onun maliyyə imkanları yalnız ona imkan verir ki, kredit müddəti 2 il əvəzinə, 2,5 il olsun, faiz dərəcəsi isə 30 faiz əvəzinə 29 faiz olsun:** "Borc alan da cavab olaraq bankdan maliyyə imkanlarının yalnız buna çatdığının sübut edilməsini tələb etsin. Eyni zamanda bildirsin ki, bank bunu sübut etməyənədək kredit üzrə heç bir ödəniş etməyəcək və bu müddət ərzində faizlərin hesablanması dayandırılmalıdır. Bundan sonra bank borc alana qarşı məhkəmədə iddia qaldıracaq və tələb edəcək ki, borc alan krediti qaytarsın. Təbii, faizlərin hesablanmasını da dayandırmayacaq. Borc alan da məhkəmədə desin ki, bank KM qərarına əməl etmir. Bankın maliyyə imkanının sübut edilməsi üçün isə ekspertizanın təyin edilməsini tələb etsin. Nəzərə alaraq ki, bankları bahalı audit şirkətləri audit edir, ekspert qismində də məhz onlar çıxış etməlidir. Həmin audit şirkətləri sübut etməlidir ki, konkret olaraq bu borc alanın marağında olan güzəştlərin edilməsinə bankın maliyyə imkanı kifayət etmir. Qoy görək necə sübut edəcəklər ki, bank tutaq ki, 5000 dollar kredit üzrə güzəşt etmək üçün maliyyə imkanına malik deyil? Hətta deyə bilərsiniz ki, adını bank qoyub 5000 dolların söhbətini edir. Məhkəmədə faizlərin dayandırılması tələbini də onunla əsaslandırın ki, kredit ödənişin dayanması bankın təqsiri ucbatından baş verir: maliyyə imkanını sübut edə bilməyib indiyə qədər. Buna görə də bu müddət ərzindəki zərər də ona aiddir".

**Ekspert qeyd edib ki, paralel olaraq vətəndaş bütün aidiyyəti dövlət orqanlarına da şikayət yazın:** “Hər şikayətdə mütləq deyin ki, Konstitusiya Məhkəməsinin məntiqinə əsaslanırsınız. Məhkəmə xalqı düşünərək qərarına 6-cı bəndi daxil edib, amma banklar həmin bəndə riayət etmirlər. Ağlayırlar ki, maliyyə vəziyyətimiz pisdir. Pisdirsə, sübut etsinlər!”

❑ RÖYA

# Müsavatda daha bir Vurğun Əyyub qalmaqalı

## Binəqədi RT-nin sədri Rauf Ağayev: “Bir neçə nəfərin qeyri-qanuni keçirdiyi hansısa iclasın qərarlar qəbul etməsi qanunsuzdur”

**Müsavat Partiyası Binəqədi rayon təşkilatının bir neçə şura üzvü mayın 19-da iclas keçirib. Bu barədə sosial şəbəkədə şura üzvü Şamil Beydulla status paylaşıb. O bildirib ki, iclasda əsas müzakirə olunan məsələ iki həftə öncə təşkilatın özəyinin qərarı ilə partiyadan çıxarılan Vurğun Əyyubla bağlı olub. İclasda qərara alınıb ki, Vurğun Əyyubla bağlı verilən qərar qanunsuz olub. İclasda özəyin protokolu ləğv edilib, seçki orqanları buraxılıb. Özək sədri Sabit Hacıyev sədrlikdən azad olunub və ona töhmət verilib.**



Vurğun Əyyub

Müsavat Partiyasının başqan müavini Elman Fəttah isə musavat.com-a deyib ki, bu məlumata şübhə ilə yanaşır: “10 nəfər şura üzvü ilə danışmışam. Heç biri iclasda iştirak etməyib. Rayon təşkilat sədrinin də məlumatı yoxdur”.

**Daha sonra partiya adından rəsmi açıqlama yayılıb və bu qərarın nizamnamə pozuntusu olduğu bəyan edilib. Partiya adından yayılan rəsmi açıqlamada deyilir:** “Partiya nizamnaməsində xaric edilmiş üzvün bərpa edilməsi anlayışı yoxdur. Bir neçə şura üzvünün rayon təşkilatı sədrindən xəbərsiz, şura üzvlərinə məlumat vermədən keçirdikləri iclas şura iclası ola bilməz. Bu, bir neçə şəxsin şuradan kənar toplantısıdır. Binəqədi rayon təşkilatında bu gün şura iclası çağırılmayıb.

Nizamnaməyə görə özək sədri və ya şura üzvü üzvlükdən 2/3 səs çoxluğu ilə çıxarıla bilər. Yığışan şəxslərin şura sədrindən xəbərsiz keçirdikləri toplantı və orda qəbul edilən qərarlar və tərtib olunan sənədlər nizamnaməyə ziddir” .

**Vurğun Əyyub isə onunla bağlı baş vermiş hadisəyə belə münasibət bildirib:** “Binəqədi rayon təşkilatının şura üzvlərinə göstərdikləri diqqətə, sərgilədikləri hüquqi və demokratik mövqeyə görə təşəkkürümü bildirirəm. Bu qərar bir daha göstərdi ki, Müsavat Partiyası demokratik əsaslar üzərində qurulub. Partiyada heç də hamı partiyanın rəhbərliyini ələ keçirmiş Arif Hacılı qruplaşmasının nizamnamədən kənar addımlarına göz yummaq, sifarişli qərarlara tabe olmaq niyyətində deyil. Müsavat qanunsuzluqlara baş əyməyənlərin, ləyaqəti uca tutanların, demokratik ənənələrə sadiq olanların təşkilatı olmalıdır. Son zamanlar baş verən qanunsuz, nizamnamədən kənar addımlara etiraz edib ortaya mövqe qoyan insanlar bunu bir daha sübut etdilər! Var olun!”

**Binəqədi rayon təşkilatının sədri Rauf Ağayev isə dünən “Yeni Müsavat”a bildirdi ki, həftənin birinci günü Müsavatdakı aclıq aksiyasını dayandırdıqdan sonra səhhətindəki problemlərlə bağlı üç gündür ev şəraitində müalicə alır. Bir neçə şura üzvünün keçirdikləri iclasda iştirak etməyib və həmin iclasın rayon təşkilatının şura iclası kimi təqdim olunması tamamilə əsassızdır:** “Şuranın iclasının çağırılması, keçirilməsi prosedurları var. Həmin prosedurların heç birinə əməl olunmayıb. Həmin iclas qeyri-qanunidir. Bir neçə nəfərin qeyri-qanuni keçirdiyi hansısa iclasın hansısa qərarlar qəbul etməsi də təbii ki, qanunsuzdur. Hətta o iclas qanuni olsaydı belə özəyin buraxılması və partiyadan xaric edilən şəxsin partiyaya bərpa olunması barədə Nəzarət Təftiş Komissiyasının təqdimatı olmadan şura iclasının özbaşına qərar qəbul etmək hüququ yoxdur. NTK-nin özəyin buraxılması, özəyin qəbul etdiyi qərarın qanunsuz olduğu barədə heç bir təqdimatı yoxdur. Mən NTK sədri ilə danışdım. O mənə bildirdi ki, həmin iclasın qeyri-qanuni olduğu, qeyri-qanuni qərarlar verdiyi barədə onlara mövqeyini çatdırıb”.

❑ Etibar SEYİDAĞA




# Facebook məsuliyyət yaradırmı...

## Zamin Hacı nümunəsində bu məsələ yenidən gündəmə gəlib

**Azərbaycanda əsas aparıcı sosial şəbəkələrdən olan facebookda istifadəçilərin paylaşdıqları statuslara görə məsuliyyətə cəlb olunmaları, təqib, təzyiq, təhqirlərə məruz qalmaları halları günbəgün artmaqdadır. Xüsusilə belə hallar siyasi əqidəsi olan şəxslərə daha çox şamil olunur.**

Son olaraq, Binəqədi rayonu ərazisində baş verən dəhşətli yanğın hadisəsini misal çəkmək olar. “Yeni Müsavat” qəzetinin köşə yazarı Zamin Hacı da hadisə baş verən gün Bakı Şəhər Baş Polis İdarəsinə çağırılıb. General-mayor Elxan Seyidovla söhbətindən sonra məlum oldu ki, köşə yazarının BŞBPİ-nə çağırılmasına səbəb statusu olub.

Uzun müddət idi ki, Z.Hacı facebooku tərk etmişdi. “Yeni Müsavat”a açıqlamasında köşə yazarı bu hadisədən sonra bir daha sosial şəbəkələri tərk etməyəcəyini bildirdi: “Facebookda fəaliyyəti davam etdirmək lazımdır. Jurnalist hər hansı bir hadisə ilə bağlı polisə ifadə verməyə çağırıla bilər. Hər hansı bir hadisə baş verəndə jurnalist şahidi ola bilər. Bu yolla polis cinayətkarı tutmağa nail olar. Bunları fikirləşib dedim ki, polis jurnalistlərlə bu cür fəaliyyət göstərməlidir. Biz konkret cinayət əməlləri barədə yazı yazırıq. Konkret bu halda yanan binanın konstruksiyalarla bəzədilməsi cinayətdir. Arzu edərdim ki, gələcəkdə polis bizi hansı binaların yerini bilməyimiz, onlara kömək etməyimizlə bağlı çağırardı. Polis bununla məşğul olmalıdır. Əksinə, çağırıb bizə xəbərdarlıq etməməlidir. Binaları o günə salan "quldur dəstələri" qorxmalıdır. Onlar çəkinməlidir ki, hüquq-mühafizə orqanları tərəfindən hər an çağırıla bilərlər. Sual verdim ki, məni statusumda yazmışam ki, bu cür örtüklər təhlükəli olduğuna görə sökülməlidir. Burada nə var ki? Statusun qanuna zidd olmadığını bildirdim. Təhlükə qarşısında qalan binanın qalmasını, bununla da, ölməyimi gözləməliyəm? Heç bir söz tapa bilmədilər və dedilər ki, qanuna, dinə zidd hərəkət etmişəm. Çox komik fikirdir. Məscidlərdən yazmamışam, yaxud kiminsə saqqalını qırxmağa çağırış etməmişəm ki... Sadəcə, bina üzündəki örtüklərin sökülməsinə çağırış etmişəm. Aydın məsələdir ki, ölkəmizdəki vəziyyətin təzahürüdür. İstəyirlər ki, qul kimi yaşayaq. İstənilən addımımızı hökumətlə razılaşdırmağımızı istəyirlər. Uşaqlarımızın sünnətindən tutmuş, öləndə aş, yaxud dolma vermək işimizə qədər dövlət burnunu soxmaq istəyir. Ölkə totalitar nəzarət altındadır. Bunu bildiyimiz üçün təəccüblənmədim".

**Zamin Hacı ilə birlikdə BŞBPİ-də olan qəzetimizin hüquqşünası Vaqif Hüseyn normal söhbətin keçdiyini qeyd etdi:** “Zamin bəyə statusunda diqqətli olmağı xahiş edildi. Çünki o, ictimai rəyə təsir edən insanlardan biridir. Çox güman ki, həmin statusu çox adam paylaşıb. Onların fikrincə, belə statuslar yolverilməzdir. Zamin bəy dediyi fikirdə qaldı. Bildirdi ki, heç bir qanunsuzluğa yol verməyib. Normal danışıq keçdi. Sonda hər kəs öz fikrində qaldı”.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 109 (6137) 21 may 2015



# Din istismarçıları

Kənan RÖVŞƏNOĞLU

## Min ilin sənətindən niyə xilas ola bilmirik?

**Əslində bu yazının mövzusu mart ayında Əfqanıstanın paytaxtı Kabildə küçədə bir dəstə cahil insan tərəfindən "Quranı yandırdı" iddiası ilə linç edilib öldürülən Fərhunda adlı qadının faciəsi idi. Çünki dünən məlum oldu ki, Əfqanıstan məhkəməsi həmin linç hadisəsi zamanı seyrçi qalan polis əməkdaşlarına həbs cəzası çıxarıb. Bundan əvvəl isə Fərhundaya iftira ataraq, onu hədəfə çıxaran və daha sonra öldürən 4 nəfər barəsində edam qərarı verilib.**

Ancaq yazını başlayanda facebookda gözümə bir başlıq sataşdı. Saytlardan biri ötən gün Bakıda yanan binada Quranın salamat çıxmasını yazmışdı. Ənənəvi mövzudur, zaman-zaman yanan evlərdə müqəddəs kitabın salamat qalmasını xəbərə çevirib bununla İP toplayanlar olub. İndi də görünür ki, kimlərsə bunu yenidən mövzu edib.

Ancaq indiki vaxtda - insanlar acıları ilə üz-üzə qaldığı vaxtda belə bir xəbəri *(doğru olub olmadığı hələ bəlli deyil)* dövriyyəyə buraxmaq hər bir halda, xoş niyyətli sayılmaz. Bunu xəbərə verilən şərhlər da təsdiqləyirdi. Bir çoxları sanki Quran günahkar imiş kimi qəzəbini müqəddəs kitabın üstünə tökürdülər. Halbuki məsələdə günahlandırılacaq sonuncu ünvan kitab idi, yenə də həmişə olduğu kimi, əsl günahkarlar kənarda qaldı...

Hər iki hadisə - Əfqanıstanda "Quran yandırdı" deyib günahsız qadını linç etmək və Bakıda 15 insanın öldüyü faciədə "Quran yanmadı" deyib xəbər yaymaq - din, Quran istismarçılığıdır. Yeri gəlmişkən, sonradan rəsmən elan olundu ki, Fərhunda, ümumiyyətlə, Quranı yandırmayıbmış. İlahiyyat təhsili olan bu fəal qadın, sadəcə, Əfqanıstanda dəbdə olan "dua yazmaq" *(bu da bir formada Quran istismarçılığıdır)* adətlərinə qarşı mübarizə aparıb.

Bu adətlər Azərbaycanda da geniş yayılıb. O da məlum olub ki, əfqan qadınına qarşı "Quran yandırdı" iftirası atan və bununla da onun döyülərək öldürülməsi və cəsədinin yandırılmasına bais olan şəxs özü də dua yazan olub. Bu hadisə o qədər amansız və ədalətsiz olub ki, hətta radikal İslam tərəfdarı "Taliban" da bəyanat yayaraq Fərhundanın qətlini pisləyib və qatilləri cəzalandıracağını bəyan edib.

Kabildə Quranın yandırıldığı, Bakıda isə Quranın yanmadığı xəbərləri hər ikisi mahiyyətcə eynidir, yəni hər iki halda müsəlmanların müqəddəs kitabı adına istismar var və son nəticədə zərbə İslam dininə dəyir. Amma bu hadisələr yeni deyil. Hicrətin 37-38-ci illərində *(miladi təqvimlə 657-ci il)* 4-cü xəlifə İmam Əlinin (ə) ordusu ilə qiyam qaldırmış Dəməşq valisi Müaviyənin tərəfdarları arasında baş verən Siffeyn müharibəsi zamanı məğlub olan vali Müaviyənin tərəfdarları nizələrə Quran vərəqləri keçirərək məğlubiyyətdən xilas olmuşdular.

Bu, dünyada ilk və ən bariz Quran istismarçılığıdır. Ancaq ötən 14 əsrdə və günü bu gün də müxtəlif formada din istismarçıları hələ var. Sui-istifadəçilər hər yerdə təhlükədir. Amma işin əsasında din, müqəddəs hisslər dayananda təhlükə riski daha da böyüyür. Əfqanıstanda Fərhunda ölsə də, onun ölümü Əfqanıstanda bir hərəkətlilik yaratdı. İnsanlar küçələrə çıxaraq etiraz aksiyası keçirdilər, din istismarçılarını lənətlədilər. Nəticə o oldu ki, 4 cani edama məhkum olundu, hadisə zamanı məsuliyyətsizlik edən onlarla polis isə məsuliyyətə cəlb edildi. Hətta linçə haqq qazandıran Kabil polisinin sözçüsü işindən qovuldu.

Amma bu tendensiya yalnız Əfqanıstanda və ya Azərbaycandadırmı? Dünyadakı müsəlman ölkələrinin bir çoxunda din istismarçılarına rast gəlmək olur. İslam adı ilə terror törədib, insan qanı üzərindən özlərinə hakimiyyət yaradanlardan tutmuş, gündəlik dolanışığı üçün, necə deyərlər başını saxlamaq üçün dindən sui-istifadə edənlərə qədər, minlərlə, on minlərlə insan dünyaya səpələnərək din adından insanları, onların inanclarını, duyğularını istismar edir.

# Alışan bina üzlüklərinə görə kim məsuliyyət daşıyır?

**Mayın 19-da Bakının Binəqədi rayonunda yanan bina ilə bağlı məsuliyyəti aidiyyəti qurumlar üzərinə götürməkdən imtina edir. İlk olaraq Bakı şəhər və Binəqədi rayon icra hakimiyyətləri dəhşətli faktla bağlı məsuliyyəti üzərindən atıb. Ekspertlər isə bildirirlər ki, bu iki qurum başda olmaqla, bir çox dövlət qurumlarının bu yangında məsuliyyəti var.**

## Binalar icra hakimiyyətlərinin sifarişi ilə üzlənir, yanan poluretan məmulatlarla bağlı "Global Stone" MMC-yə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi uyğunluq sertifikatı verib...




**Hüquqşünas Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, binaların üzvlənməsi üçün sifariş verənlər bu yanğına görə birbaşa məsuliyyət daşıyırlar: "Böyük ehtimalla, bu, dövlət satınalması qaydasında həyata keçirilib. Yəni "Dövlət satınalmaları haqqında" Qanuna əsasən, başqa cür ola bilməzdi. Çünki sifarişçi ancaq dövlət olur belə hallarda və dövlət büdcəsi hesabına maliyyələşdirilir. Deməli, icraçı müsabiqə qaydasında müəyyən edilib. Böyük ehtimalla açıq tender yolu ilə. Çünki qiyməti azı 50 min manat olan dövlət satınalması açıq tender yolu ilə aparılır. Nəzərə alsaq ki, orada bir deyil, bir neçə binada bu işlər aparılıb, açıq tender olmalı idi. Bu halda tenderi sifariş edən yəqin ki, ya Bakı Şəhər İcra Hakimiyyəti olub, ya da Binəqədi Rayon İcra Hakimiyyəti. Yəqin ki, sonuncu olub. Demək, sifarişçi odur. Demək, Binəqədi Rayon İcra Hakimiyyəti tenderi elan edib, qalibi müəyyən edib, onunla müqavilə bağlayıb. Müqaviləyə əsasən, qalib gəlmiş şirkət işi görüb, yekunda da tərəflər təhvil-təslim aktı imzalayıb. Yəni Binəqədi İcra Hakimiyyəti işi yoxlayıb və qəbul edib. Əlbəttə, icraçı keyfiyyətə cavabdehdir. Amma sifarişçi də işin yoxlanmasına görə cavabdehdir".

Qeyd edək ki, sosial şəbəkədə də binaların üzlənməsinə görə məsuliyyət daşıyan qurumlarla bağlı sənədlər yayılıb. Məsələn, fasadları üzlənən binaların qarşısında işlərin Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən aparıldığı yazılan lövhələr var. Həmçinin "Global Stone" MMC-yə verilən uyğunluq sertifikatı da ortaya çıxıb. Uyğunluq sertifikatı Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən "Global Stone" MMC-yə poluretan məmulatlarla bağlı verilib.

Həmçinin Fövqəladə Hallar Nazirliyinin (FHN) "Global Stone" MMC-nin istehsal etdiyi poliuretan məmulatları çətin yanan material hesab etməsi barədə də sənədlər yayılıb. Vətəndaşın FHN-ə ünvanladığı müraciətə cavabda belə deyilir. FHN-in Dövlət Yanğın Nəzarəti Xidməti 2-ci Ərazi Dövlət Yanğın Nəzarəti İdarəsi tərəfindən vətəndaşın sualına cavab olaraq bildirilib ki, "Global Stone" MMC-nin istehsal etdiyi və kaparol boyası ilə işlənmiş poliuretan üzlük çətin yanan material hesab olunur.

Qeyd edək ki, baş prokuror Zakir Qaralov da yanğın günü jurnalistlərə açıqlamasında bildirib ki, yanğın binanın üzlüyünün keyfiyyətsiz olması səbəbindən baş verib.

**Moderator.az isə Binəqədidə yanan bina ilə bağlı tikinti normalarını yaxşı bilən tanınmış mütəxəssis Rahab Qazıyevlə bu mövzuda danışıb. O bildirib ki, dəfələrlə FHN-ə müraciət edərək binalara çəkilən üzlüklərlə bağlı narahatlığını bildirib:** "Demişəm, siz bilirsiniz ki, bu şəhər sanki saat mexanizmli bombanın üstündədir? Amma kimsənin vecinə olmadı. Guya bu gün yaxasını kənara çəkənlər həmin materialın təhlükəli olduğunu və tikinti üçün yaramadığını bilmirdilərmi? İndi komissiya yaradıb nəyi öyrənməyə çalışacaqlar ki? Gün kimi aydındır ki, o materialı binaların yaxınına da buraxmaq olmaz, amma bunların gözün pul elə örtdü ki, millətin başına belə faciə gətirdilər. Özü də bu hadisə naşılıqdan və ya peşəkarlığın azğı olmasından qaynaqlanmadı. Elə götürək komissiyanın sədri təyin edilən baş nazirin müavini Abid Şərifovu. Mən onu şəxsən tanıyıram və onu çox yaxşı mütəxəssis hesab edirəm, tikintini də beş barmağı kimi bilir. Məgər Abid müəllim görmürdü ki, şəhəri minalayırlar?" **Onun sözlərinə görə, binanı üzləmək üçün icazəni icra hakimiyyətindən almaq lazımdır:** "Hər bir icra hakimiyyətində fövqəladənin də nümayəndəsi olur və o nəzarət edir bu işlərə. Tikinti normalarında birmənalı olaraq yazılıb ki, tezalışan materialların tikintidə istifadəsi qadağandır. Amma bizdə it yiyəsini tanımır. Bu gün ölkədə tikintidə xaos və pərakəndəlik hökm sürür. Heç bir layihə təsdiq olunmadan tikintisinə başlanılır. Bu isə yolverilməz haldır".

**Qeyd edək ki, yanğın Binəqədi rayonu, Azadlıq prospekti 200/36 ünvanında baş verib. Hadisə nəticəsində 15 nəfər ölüb, 70-ə yaxın şəxs isə yaralanıb.**

❑ Röya RƏFİYEVA

# Müxalifət prezidentdən gözlədiyini niyə özü etmədi...

## "Yanğın yerinə getmək üçün irəlilədim, özlərini polis kimi təqdim edən mülki geyimli adamlar qarşımı kəsdilər"

**Dünən ölkə prezidenti İlham Əliyev mayın 19-da Bakının Azadlıq prospektində baş verən yanğın hadisəsi yerinə gedib. Hadisə baş verən gün prezidentin oraya baş çəkməməsini bir sıra müxalifət partiyalarının rəhbərləri, təmsilçiləri tənqid etmişdilər. Maraqlıdır ki, müxalifət partiyalarının liderləri və rəhbərliyinə daxil olan şəxslər prezidentdən gözlədikləri addımı özləri atmadılar. 15 insanın həlak olması, onlarla insanın xəsarət alması ilə nəticələnən faciənin yaşandığı əraziyə müxalifətdən də gedib baş çəkən olmadı. Qardaş Türkiyədə bu cür hadisələr yaşananda ölkə rəhbərliyi ilə yanaşı müxalifətin önəmli simalarının da hadisə yerinə getməsi, birgə görünməsi, ən azından mənəvi yardımda bulunmaları kimi yaxşı təcrübə var. Azərbaycanda isə nə yazıq ki, buna rast gəlinmir.**



Gülağa Aslanlı

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** "nə üçün Müsavat rəhbərliyi qərargahın yaxınlığında baş verən yanğın hadisəsi yerinə həmin gün baş çəkmədi" sualına belə cavab verdi: "Birinci səbəb Azərbaycanda belə bir ənənənin olmamasıdır. Birinci olaraq dövləti təmsil edən rəsmilər oraya getməlidirlər. Müxalifət liderlərinin və təmsilçilərinin isə getsələr belə, bu cür hadisə baş verən yerə buraxılmayacağı bəllidir. Bunu mayın 19-da həmin binada yanğın olduğu zaman şəxsən mən öz təcrübəmdə gördüm. Müxalifət nümayəndəsi olaraq mən hadisə vaxtı "Azadlıq prospekti" metro stansiyasının aşağı çıxışından çıxdım. Yanğın yerinə getmək üçün irəlilədim. Hələ binaya xeyli məsafə qalmışdı ki, özlərini polis kimi təqdim edən mülki geyimli adamlar qarşımı kəsdilər, irəliləməyə imkan vermədilər. Baxmayaraq ki, mən müxalifət partiyasının lideri deyiləm, bir o qədər də tanınan simalardan deyiləm, məni oraya yaxın qoymadılar. Mən orada kiçik etiraz edib dedim ki, belə bir faciə Bakı şəhərində bu cür üzlüklərlə üzlənmiş yüzlərlə binanı gözləyir. Həmin anda 4-5 nəfər şəxs mənə yaxınlaşıb məni dövlət əleyhinə təbliğat aparmaqda suçlamaları ilə nəticələndi. Bax, Azərbaycanda vəziyyət bundan ibarətdir. Müxalifət təmsilçiləri vətəndaşlarımızın bu cür hallarda hadisə yerinə gedə bilməməsinin əsas səbəbi belə vəziyyətin hökm sürməsidir. Xatırlayırsınızsa, Tofiq Yaqublu İsmayıllıda məlum hadisələr baş verəndən və hətta sakitlik yaranandan sonra həmin rayona getməsinə baxmayaraq, onu hadisələrdə günahkar elan edib həbs etdilər".

G.Aslanlı sonda onu da dedi ki, müxalifət çox istəyir ki, belə faciəli hadisələr olmasın. Olduğu zaman isə xalqın, insanların faciəli anlarında hakimiyyətli-müxalifətli hər kəsin birlikdə insanların yanında olması, insanlara dəstək olması yaxşı olardı.

❑ Etibar SEYİDAĞA

# Prezidentdən komandasını silkələyən bəyanatlar

**16 mərtəbəli binada yanğın ölkənin bütün gündəmini, Avropa Oyunlarına köklənmiş ab-havasını büsbütün dəyişib. Bunun da səbəbi aydındır. 2007-ci il avqustun 28-də Bakının Naxçıvani və Murtuza Muxtarov küçələrinin kəsişməsində tikilən çoxmərtəbəli binanın çökməsindən sonra bu, məhz məmurların məsuliyyətsizliyi səbəbindən paytaxtda baş vermiş ən ağır hadisə sayılır.**




# Yanan bina “böyük başları” aparacaq - ikisi məlum...

## Yanğınla bağlı Dövlət Komissiyasını toplayan dövlət başçısı “heç kim cəzasız qalmayacaq” dedi; İlham Əliyev həbsdəki oliqarxları məsuliyyətdən yayındırmaq istəyənlərə də sərt xəbərdarlıq etdi; “odda yanmaz, suda batmaz” Abutalıbovun son limitini “yandırdığı” iddia olunur...

Xatırladaq ki, 25 nəfərin ölümü ilə nəticələnən həmin hadisə zamanı da prezident İlham Əliyev Abid Şərifovun rəhbərliyi ilə Dövlət Komissiyası yaratmış, hadisə yerinə şəxsən baş çəkmişdi. Amma Azərbaycan 7 il əvvəlki ölkə deyil, o vaxt təzəcə yaranmış FHN-in təcrübəsi də, texnikası da az idi, indi şükür, helikopterləri də var. Bəlkə məmurların da prezidentlik müddətinin beş ilini tamamlamamış, 2005-ci ildə iki naziri xəyanətə görə həbs etdirən İlham Əliyevlə işləməkdə müəyyən çətinlikləri var idi. Amma Azərbaycan da, paytaxt Bakı da indi çox dəyişib, ölkə fövqəladə hadisələrdən-Aran rayonlarında subasmalardan, Zaqatala bölgəsində zəlzələdən - öz gücünə çıxa bilib, iqtidar da idarəçilik sistemini daha da gücləndirib. Paytaxt Bakı “çadır çayxanalardan” abad bir şəhərə çevrilib, hər il bu məqsədlə dövlət büdcəsindən milyonlarla vəsait ayrılır.

Bu faciənin məhz 20 gün sonra Avropa Oyunlarına ev sahibliyi etmək kimi fövqəladə məsuliyyətli bir yarışa start verəcək Bakıda baş verməsinə prezidentin bu cür sərt reaksiyası gözlənilən idi. Çünki bu, bir təbii fəlakət nəticəsində deyil, məhz məmurların yumşaq ifadə etsək, məsuliyyətsizliyindən doğan hadisədir.

***

**Mayın 20-də hadisə yerindən qayıtdıqdan dərhal sonra prezident Dövlət Komissiyasının üzvləri ilə keçirdiyi toplantıda məmur-oliqarx sistemini ciddi silkələyəcək və sensasion açıqlamalar verib. Prezident əvvəlcə yanğın hadisəsinin baş verməsində təqsirli bilinən şəxslər barədə cinayət işinin qaldırıldığını və onların ciddi şəkildə cəzalandırılacağını deyib:** “Əgər bütün işlər düzgün qurulsaydı, bu hadisə baş verməzdi. Azərbaycan vətəndaşları bilməlidir ki, günahkar və günahkarlar kimdir? Bu hadisəyə görə kim məsuliyyət daşıyacaq? Hər kəs nəticə çıxarmalıdır, hər bir məmur öz məsuliyyətini dərk etməlidir. Bir də qeyd edirəm ki, heç kim cəzasız qalmayacaq. Günahkarlar dövlət tərəfindən cəzalandırılacaq və ədalət bərpa ediləcək”.

Prezidentin çıxışından aydın görünür ki, Avropa Oyunları ərəfəsi baş verən bu hadisədə əsas vurğu “kimdir günahkar” sualının üzərinə qoyulub. Dövlət başçısı həbs edilən şirkət rəhbəri haqqında danışmayıb və bu da təsadüfi deyil. Bu o anlama gəlir ki, həbsə alınan, üzlük istehsal edən şirkət rəhbəri bu binaya görə “yanan” yeganə adam olmayacaq. Bu o deməkdir ki, həbs edilən “günahkar”la iş bağlanmayacaq, bu ağır hadisəyə görə yaxasını kənara çəkmiş məmurlar da üzə çıxarılacaq.

**Bu xüsusda Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun və Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun adı ilk sırada çəkilir. Məlumatlara görə, yaxın qohumu, vergilər naziri Fazil Məmmədovun dəstəyi ilə Bakı meri olmağa iddialı icra başçısının taleyi indi böyük sual altındadır. Onun adının Dövlət Komissiyasının tərkibinə salınmaması *(Yasamalda baş verən uçqun zamanı rayonun icra başçısı nazirlərlə bərabər komitədə təmsil olunurdu)* yekunda onunla da bağlı qəti qərar veriləcəyini göstərir. “Odda yanmaz, suda batmaz” Abutalıbovun da bu hadisə ilə son limitini “yandırdığı” və Avropa Oyunlarından sonra gedəcək məmurlar sırasında adının birinci olacağı deyilir. Prezident iclasda Bakıdakı qanunsuz evlərlə bağlı da danışıb:** “Sanki heç kimin xəbəri yoxdur. Yerli icra başçılarının xəbəri yoxdur, şəhər icra başçılarının xəbəri yoxdur, heç kimin xəbəri yoxdur...”

**Prezident qanunsuz tikililərlə bağlı danışarkən Abutalıbovun adını da çəkib. Prezident “Dostluq” parkında 7-8 il əvvəl ağacların qırılması ilə bağlı hadisəni xatırladıb:** “Hacıbala Abutalıbova göstəriş verdim ki, gedin, aydınlaşdırın, bütün tikilən binalar qanunsuzdur, onları sökün. Qoy, onları tikənlərə dərs olsun. O gün həmin əraziyə gələndə yenə də görürəm ki, düz ”Dostluq” parkının yanında - yamacda villalar tikilib. Dedim ki, bunları tikənlərin kim olduğunu öyrənin. Heç bir adam çıxmadı. Dedim ki, bir villanı sökün, görün, işin arxasından kim çıxacaq. Heç kim çıxmadı. Dedim, belədirsə, əgər heç kimə məxsus deyilsə, sökün, bunları dağıdın, başqalarına dərs olsun. Qanunsuz yollarla özəlləşdirirlər, zəbt edirlər, hasarlayırlar. Orada elə istinad divarları tikilib ki, bəlkə də təkcə onun tikintisinə bir neçə milyon manat sərf edilib. Bu qədər özbaşınalıq olmaz. Mən dəfələrlə demişəm ki, qayda-qanun olmalıdır. Bütün vəzifəli şəxslər - ilk növbədə onlar nümunə olmalıdırlar".

***

**Son günlərin ən qalmaqallı hadisəsi oliqarxların həbsindən danışan prezident sensasion sayıla biləcək açıqlama verib.**

**Dövlət başçısı bildirib ki, həbs edilən iş adamları dövlət əmlakını talayıb, dövlət vəsaitini oğurlayıblar:** “Vəzifəli şəxslərin ailə üzvləri cinayət törədirlər, ondan sonra məsuliyyətdən yayınmaq istəyirlər. Əfsus ki, onlara himayədarlıq edən dövlət məmurları da var, onları məsuliyyətdən yayındırmaq üçün min cür əməllərdən çıxırlar. Burada oturanlar mənim mövqeyimi bilir. Bir adam, xüsusi ilə dövlət məmuru, böyük vəzifə sahibi məsuliyyətdən qaça bilməyəcək. Məsuliyyətli olmaq lazımdır. Cinayət törətmisənsə, get, cəzasını çək”.

Qeyd edək ki, “Yeni Müsavat” Beynəlxalq Bankdan külli miqdarda dövlət əmlakının mənimsəyən iş adamlarına bəzi nazirlərin “krışalıq” etdiyi barədə məlumatlar dərc etmişdi. Həmin məlumatlarda deyilirdi ki, nazirlərin kimliyi barədə konkret bilgilər prezidentə verilib və Avropa Oyunlarından sonra hakim komandada ciddi “təmizləmə” olacaq, hətta üçədək yüksək rütbəli məmur həbs ediləcək. Prezident bir neçə müşavirəsində məmurlarla bağlı sərt xəbərdarlıqlar edib. Amma bu dəfə dövlət başçısı konkret olaraq iki cinayət hadisəsi-oliqarxların işi və faciəli yanğın barədə danışarkən bu cür “bir dövlət məmuru, böyük vəzifə sahibi məsuliyyətdən qaça bilməyəcək, cinayət törətmisənsə, get, cəzasını çək” kimi sərt tonu seçib.

Bu artıq hakim komandada Avropa Oyunlarından sonra olacaq ciddi dəyişikliyin anonsudur. Yanan bina bu prosesi, sadəcə, daha da sürətləndirib...

❑ **“Yeni Müsavat”**



# Hacı İbrahimlə bağlı ən son xəbər - “Avesta”dan təkzib

## “Gəncə aeroportunda saxlandığı barədə məlumat yalandır”

**“Avesta” konserni Hacı İbrahim Nehrəmlinin Gəncə aeroportundan istifadə etməklə, ölkə xaricinə çıxmaq təşəbbüsü göstərərkən saxlanıldığı barədə mediada gedən xəbərləri təkzib edib.**

Konserndən musavat.com-a daxil olan məlumatda bildirilir ki, bu xəbər həqiqətə uyğun deyil, konsernin rəhbəri Hacı İbrahim Nehrəmli ölkə xaricinə getmək istəməyib.

Konserndən onu da bildiriblər ki, hazırda Hacı İbrahim Nehrəmli Beynəlxalq Bankdan götürdüyü krediti qaytarmaqla bağlı öhdəlik götürüb.

“Avesta”dan verilən məlumata görə, həmin kreditlərin qaytarılması üçün nəzərdə tutulan müddət 2019-cu ildə başa çatır: “Buna baxmayaraq, Hacı İbrahim Nehrəmli banka borclu olduğu kreditin yaxın 2-3 ay ərzində qaytarılması üçün öhdəlik götürüb və hazırda bu istiqamətdə çalışır”.

Qeyd edək ki, ölkənin ən iri sahibkarlarından biri olan Hacı İbrahim Nehrəmli bir neçə gün öncə Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə (BMCQMİ) çağırılaraq saatlarla dindirilib. Sonra sərbəst buraxılıb. Üç gün öncə isə onun yenidən həmin idarəyə gətirildiyi və hələ də orda saxlandığı haqda mediada xəbər yayılıb.



# Xilaskar polis DİN-in nəzarətinə götürüldü

**Yanmış binadan 4 nəfəri xilas edən polis Daxili İşlər Nazirliyinin hospitalına köçürülüb. Bu barədə axar.az-a Əjdər Məlikov adına 6 saylı birləşmiş şəhər xəstəxanasından bildirilib. Xəstəxanadan verilən məlumata görə, yanğın baş verən binadan 4 nəfəri xilas edən polis əməkdaşı Şahin Qocayevin vəziyyəti yaxşılaşır. Polis əməkdaşı müalicəsini davam etdirmək üçün Daxili İşlər Nazirliyinin hospitalına köçürülüb:**

“Polis əməkdaşı hazırda orada müalicəsini davam etdirir. Xəstəxanadan çıxarılan zaman vəziyyəti normal olduğu üçün DİN-in hospitalına köçürülməsinə icazə verilib”. Qeyd edək ki, srağagün Bakının Binəqədi rayonunda, Azadlıq prospektindəki 16 mərtəbəli yaşayış binasında baş vermiş güclü yanğın zamanı Çevik Polis Alayının 2-ci Patrul Bölüyünün əməkdaşı Qocayev Şahin Alı oğlu vəzifəsinin icrası zamanı şücaət göstərərək 3 nəfəri xilas edib. 4-cü sakini, Azərbaycan Texniki Universitetinin 2-ci kurs tələbəsi Ülvi Sadıqovu binanın 7-ci mərtəbəsindən binanın blokuna qədər çiynində gətirib. Hər ikisi bloka çatan zaman tüstüdən zəhərləndikləri üçün huşlarını itiriblər. Bu səbəbdən polis əməkdaşı Şahin Qocayev və son anda xilas etdiyi tələbə Ülvi Sadıqov 6 saylı Birləşmiş şəhər Xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirilmişdilər. Xatırladaq ki, mayın 19-da Bakının Binəqədi rayonunda, Azadlıq prospektindəki 16 mərtəbəli yaşayış binasında baş vermiş yanğın zamanı ölənlərin sayı 15, xəsarət alanlar isə 50 nəfərdir.

YENİ MÜSAVAT
N 109 (6137) 21 may 2015

**Aprelin 19-da Binəqədi rayonunda yanan binada baş verənlər mayın 20-də də ciddi şəkildə hökumət rəsmilərinin, həm də mətbuatın diqqət mərkəzində olub.**

# Bütün gözlər yanan binada...

## Sakinlər qan ağlayır, rəsmilər söz verir; "İki dəqiqəyə qara qatı tüstü binanı bürüdü, kəlmeyi-şəhadəti oxudum..."









Azərbaycan Prezidenti İlham Əliyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, Binəqədi rayon icra başçısı Xaləddin İsgəndərov binaya baş çəkib. Yanan evin yaxınlığında zərərçəkənlərin problemləri üzrə operativ qərargah yaradılıb. Gün ərzində ərazi icra hakimiyyətinin, FHN nümayəndələrinin və polis işçilərinin nəzarətində olub.

"Yeni Müsavat"ın müxbiri yanan binaya baş çəkib və ərazidə aparılan işlərlə maraqlanıb.

### "Bina elə tez alışdı ki, çıxmağa macal tapmadıq"

Gecəni qohumlarının evində və onlar üçün ayrılmış mənzillərdə keçirən sakinlər səhər erkən saatlardan yenə yanmış mənzillərinə baş çəkməyə gəlmişdilər. Hadisənin şahidi olanlar ötən gün baş verən hadisənin dəhşətindən danışarkən bildiriblər ki, nəinki əşyaların, özlərinin sağ qalmağına belə şükür edirlər.

Qeyd edək ki, hadisə iş saatında baş verdiyindən binada əsasən qadınlar və uşaqlar olub. Bu da onların xilas olunmasını çətinləşdirib. Sakinlərin əksəriyyəti əvvəlcə binanın dəhlizindən səs-küy eşitdiklərini, sonra bir anda mənzillərinin alova büründüyünü görüblər. Əksəriyyəti hamamda gizlənərək xilas olmağa çalışdığını bildirir. Aşağı mərtəbələrdə yaşayanlar isə yanğından daha tez xilas olublar. Onlar binanın alışdığını görən kimi bayıra qaçdıqlarını deyirlər. Yuxarı mərtəbələrdə yaşayanlar son anda Fövqəladə Hallar Nazirliyinin əməkdaşları tərəfindən xilas edilib. Sakinlər bu dəhşətli anları ömürlərinin sonuna qədər unutmayacaqlarını deyiblər: "Binanın hər tərəfindən alovun yüksəldiyini gözümüzlə gördük. Qatı tüstü mənzilə dolurdu. Ağzımızı bağlayıb zəhərlənmədən qorunmağa çalışırdıq. Sağ çıxmağa ümidimiz yox idi. Sağ qalmağımıza görə hər dəqiqə şükür edirəm. Ancaq övladını itirən ailələr də var, onların acısını təsəvvür etmək mümkün deyil".

**Sakinlərdən Heyvagül Əfəndiyeva baş verənləri belə xatırlayır:** "Oturmuşdum evdə, birdən hiss etdim ki, güclü yanıq iyi gəldi. Durub otaqları yoxladım, baxdım ki, heç nə yanmır. Sonra pəncərədən gördüm ki, tüstü gəlir. Tez qonşuları harayladım. Bilirdim ki, tez alışacaq. Çünki keçən dəfəki yanğında görmüşdük. İki dəqiqə keçmədi ki, qara qatı tüstü binanı bürüdü. Kəlmeyi-şəhadəti oxudum. Üzbəüz qonşudakı bacı-qardaş boğulmuşdu. Qonşunun qızı ilə liftə minib tez bayıra qaçdıq. Çıxanda gördüm ki, bina başdan-başa alışıb. Evdən heç nə xilas edə bilmədik. Əynimdə bir ev paltarı ilə çıxmışdım, o da pis vəziyyətdə idi, qohumlarım paltar verdi geyindik".

H. Əfəndiyevanın sözlərinə görə, dünən onları Sərhəd Qoşunlarının pansionatına yerləşdiriblər, gecəni orada keçiriblər.

Sakinlər bildirir ki, yanğın baş verərkən bəziləri evdə yatmış vəziyyətdə olub, onlar binadan çıxmağa gecikib və içəridə qalıblar.

### Vətəndaşlar həlak olanları andı, polis mane oldu

**Özləri sağ qalsa da, hər bir sakin hadisədə dünyasını dəyişən qonşuları üçün göz yaşı axıdırdı. Bakı sakinləri də hadisəyə duyarsız qalmayıb. Onlarla insan binanın həyətinə qərənfillər düzüb, yanğında həlak olanların xatirəsini anmaq üçün şam yandırıblar. Polis əməkdaşları isə qoyulan şamları dağıdaraq vətəndaşları ərazidən uzaqlaşdırıblar:** "Bizə dedilər ki, bunlara ehtiyac yoxdur. İşimizə mane olmayın. Bura Şəhidlər Xiyabanı deyil ki..."

**Mənzilləri yanan vətəndaşlar binanın tez alışan materialla üzlənməsində məsuliyyət daşıyan səlahiyyətli şəxsləri qınayırlar:** "Dəfələrlə binanın fasadına poluretan materialın vurulmasına etiraz etdik. Bu materialın nə dərəcədə təhlükəli olması Xətai rayonunda bina yanarkən də aydın oldu. Ancaq vaxtında tədbir görülmədi. Biz inanmırdıq ki, belə bir hadisə ola bilər. Bütöv bir bina 10 dəqiqədə yana bilər. Bütün binaların üzü sökülməlidir".

**Zərərçəkənlər FHN əməkdaşlarının işindən razılıq etdilər:** "Bakıda nə qədər yanğınsöndürən işçi var idisə hamısı dünən burada idi. Onlar canı bahasına qadınları, uşaqları xilas etməyə çalışırdılar. Onların özü də zəhərlənmişdi. Neçəsini binadan halsız vəziyyətdə çıxartdılar. Pisi deyiriksə, yaxşını da deməliyik".



**Mənzillərə dəyən ziyana gəlincə, çox az mənzildən salamat əşyalar çıxarmaq mümkün olub. Əksər evlərdə elektron avadanlıqlar və mebellər yanaraq yararsız hala düşüb. Sakinlərdən biri deyir ki, evində heç bir əşya qalmayıb, hamısı yanıb, əriyib:** "Hər şey külə dönüb. Bir-iki əşya var idi, yuxarı çıxdım ki, hər şey oğurlanıb. Getdim polisə ifadə verdim, yanan əşyaları dedim, bəziləri də yadımdan çıxdı. Cəmi 30 min manat qiymətləndirdilər".

Qeyd edək ki, səhər saatlarından etibarən sakinlər növbə ilə kimliyi yoxlanmaq şərtilə binaya buraxılıb və yanğından sağ çıxan əşyalarını çıxarmağa icazə verilib. Daşınma prosesi gün ərzində davam edib.

Bina sakinlərinin ən çox maraq və təəccüblə qarşıladığı hadisə bütün əşyaların ilə bərabər yanan mənzildə Quran-Kərimin yanmaması olub. Ancaq təəssüf doğuran məqamlardan biri də mənzillərdəki ev heyvanlarının həlak olması olub.

Günorta saatlarından başlayaraq sakinlərin qeydiyyata alınmasına başlanılıb və onlara verilən müavinət paylanılıb. Binəqədi rayon icra başçısı Xaləddin İsgəndərov jurnalistlərə açıqlama verərkən bildirib ki, binada 53 ailə yaşayır və hər bir mənzilə sıra ilə baxış keçiriləcək. İnsanlar növbə ilə içəri buraxılır və dəymiş ziyanla bağlı məlumat verirlər. Sakinlər onlara dəyən ziyanı 30-50 min manat məbləğində dəyərləndirirlər.

Sakinlərin məlumatına görə, Binəqədi rayonunda 5 saylı polis bölməsində qərargah yaradılıb və 24 saat fəaliyyət göstərəcək və sakinlərin müraciətləri üçün açıq olacaq.

ƏƏSMN tərəfindən yanğında zərərçəkmiş insanlar üçün Bilgəh qəsəbəsindəki müharibə və əmək əlilləri pansionatında iki kottec, 18 otaq hazırlanıb. Bundan başqa, Dövlət Sərhəd Xidmətinin Goradildəki pansionatında 10 kottec, Həmkarlar İttifaqları Konfederasiyasının Buzovnada yerləşən sanatoriyasında 36 otaq hazırlanıb. Dünən nazir Səlim Müslümov da pansionata baş çəkib və görülən işlərlə tanış olub.

### Ölkə başçısı yanan binaya baş çəkdi, tapşırıqlar verdi

Ölkə başçısı binaya baxış zamanı hadisənin səbəblərinin araşdırılması və nəticələrinin aradan qaldırılması ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi, hadisə vaxtı zərər çəkənlərə və həlak olanların ailə üzvlərinə yardımların göstərilməsi və digər məsələlərlə əlaqədar Dövlət Komissiyasının üzvlərinə yerindəcə tapşırıqlarını verib. İ. Əliyevin iştirakı ilə baş verən yanğınla əlaqədar yaradılan Dövlət Komissiyasının Azərbaycan Prezidentinin rəhbərliyi ilə ilk iclası keçirilib.

Dövlət başçısı hadisə zamanı həlak olanların ailələrinə bir daha başsağlığı verib. Hadisə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Prezident hadisənin baş verməsində təqsirli bilinən şəxslər barədə cinayət işinin qaldırıldığını və onların ciddi şəkildə cəzalandırılacağını deyib. İlham Əliyev bildirib ki, yanğının baş verməsinin ilkin versiyası binanın keyfiyyətsiz və oda davamsız materiallarla üzlənməsidir. Hazırda paytaxtda oxşar materiallarla üzlənmiş binaların kifayət qədər çox olduğunu diqqətə çatdıran dövlət başçısı Bakı Şəhər İcra Hakimiyyətinə və Fövqəladə Hallar Nazirliyinə oxşar materiallarla üzlənmiş binalarda ekspertizanın keçirilməsi, materialların tərkibinin öyrənilməsi, təhlükə olduğu halda həmin binaların üzlüklərinin dərhal sökülməsi barədə konkret göstərişlərini verib.

İlham Əliyev hadisə zamanı həlak olanların ailələrinə və yaralılara maddi təminat verilməsi, yanğına məruz qalmış binanın və mənzillərin tezliklə dövlət hesabına təmir edilməsi, mənzillərin ev əşyaları ilə təchiz olunması, yanğın zamanı məhv olmuş sənədlərin yenidən verilməsi və digər tədbirlərlə bağlı tapşırıqlarını verib.

Səhər saatlarında yanan binaya baş çəkən Bakı meri Hacıbala Abutalıbov FHN-in rəyindən sonra binada şənbə günündən etibarən təmirə başlanacağını bildirdi. Merin sözlərinə görə, əgər FHN binanın dayanıqlı olmaması haqqında qərar versə, o zaman bina söküləcək.

Sakinlərə söz verilib ki, binada 50 kvadratmetr evi olan sakinlərə yeni binadan 70 kvadratmetrlik mənzil veriləcək. İlkin yardım kimi artıq sakinlərə 1000 manat kompensasiya verilib.

**H.Abutalıbov bildirdi ki, dövlət tərəfindən vəfat edənlərin yaxınlarına, yaralananlara və mənzildə xəsarət alanlara da bir dəfəlik müavinət veriləcək:** "Sakinlərə demişəm, haradan istəsəniz kirayə ev tutun, pulu özüm verəcəyəm. Əgər bilsəm ki, mənim ölməyimlə yanğında vəfat edənlərdən biri geri qayıdacaq, mən bu dəqiqə ölməyə hazıram".

**Binanın fasadının üzlük materialına gəlincə, Bakı meri bu suala belə cavab verib:** "Keyfiyyətsizdirsə, buna nəzarət edənlər niyə baxmayıb? Tutaq ki, istehsal edən keyfiyyətsiz istehsal edib, bəs binaya vurulanda niyə nəzarət olunmayıb? Üç ildir ki, bu bina yanmır. İndi niyə birdən-birə yandı? Bu da sual doğurur. Bu materiallar Soçidə, Moskvada, ümumiyyətlə, bütün dünyada istifadə olunur. Amma xaricdə bu materialı bina divarına yapışdırırlar, bizdə isə aralı vurulub. Ona görə boru kimi tam yanıb başa çatıb".

Qeyd edək ki, yaralılardan birinin də həyatını dəyişməsi ilə ölü sayı 15-ə çatdı.

Yaralıların vəziyyəti isə normal qiymətləndirilir.

Dünən birinci ledi Mehriban Əliyeva yaralılara baş çəkib. Həmçinin səhiyyə naziri Oqtay Şirəliyev Binəqədidə baş verən dəhşətli yanğın zamanı yaralananlara baş çəkib, onların vəziyyəti ilə maraqlanıb.

**Yaralıların durumuna gəlincə, toksikologiya şöbəsinin müdiri Azər Maqsudov bildirib ki, xəstəxanada 12 yaralı var:** "Onlarda 3-ü uşaqdır. Yaralılardan 6-sı reanimasiyadadır. Dünən 33 nəfər müraciət edib".

### Dünyasını dəyişənlər dəfn olundu

Bakıda baş verən yanğında həlak olanlardan 2 nəfəri bu gün Qubada dəfn olunub.

3 yaşlı Fərəh Məhərrəmovanın meyiti bu gecə ata evinə Xaçmaz şəhərinə gətirilib. Saat 12:00-da körpə Fərəh baba yurdu olan Quba şəhər qəbiristanlığında dəfn olunub. Balaca Fərəhin babası, Şəvkət Məhərrəmov uşağın anası Günayın da hadisədən zərər çəkdiyini, hazırda Toksikologiya Mərkəzində ağır vəziyyətdə olduğunu deyib.

Yanğında həyatını itirənlərdən daha birinin meyiti Qubaya gətirilib. Elmira Yəhyayeva da bu gün Quba qəbiristanlığında dəfn olunub. Hadisə zamanı zəhərlənərək xəstəxanaya çatdırılan, 65 yaşlı Elmira Yəhyayeva bu gün gecə saatlarında Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsində vəfat edib. Mərhumun cənazəsi bu gün səhər saatlarında Quba şəhərinə gətirilib. Oğlu Murad Yəhyayev hadisə zamanı mənzildə anası, həyat yoldaşı, 2 uşağı, Qubadan onlara qonaq gəlmiş bacısı, 49 yaşlı Rəhimə Ələkbərovanın olduğunu deyir. İndi onlar Toksikologiya Mərkəzində müalicə olunurlar.

Dünyasını dəyişən məktəbli və tələbələr oxuduqları təhsil ocağının müəllim və tələbələri tərəfindən yad edilib.

❑ **Nərgiz LİFTİYEVA**

**Fotolar: Məğrur SALMANOV**

YENİ MÜSAVAT
N 109 (6137) 21 may 2015

# "Bu, bir şirkətin bir binanı üzləməsi məsələsi deyil"

## Vahid Əhmədov: "O, təkbaşına deyil, yəqin ona da arxa duran vəzifəli şəxslər var"

**Mayın 19-da Binəqədi rayonunda baş verən faciə hər kəsi sarsıdıb. Bundan öncə Xətai rayonunda bənzər hadisə olsa da, xoşbəxtlikdən insan itkisi olmamışdı. Ancaq çağırışların olmasına baxmayaraq, ciddi tədbirlər görülmədi və faciəvi hadisə baş verdi. Deputat Vahid Əhmədov "Yeni Müsavat"ın baş verənlərlə bağlı suallarını cavablandırdı.**



**"Mən bilirəm ki, Azərbaycana Almaniyadan, Rusiyadan yaxşı materiallar gətirilir, onlar yanmır"**

**- Vahid müəllim, baş verən yanğın hadisəsi xeyli insanımızın tələf olması və xəsarəti ilə nəticələndi. Üstəlik, çoxsaylı əhaliyə maddi-mənəvi ziyan dəyib. Baş verənlər haqda nə deyə bilərsiniz? Nə etmək lazımdır ki, insanlar bu kimi təhlükələrdən sığortalansın?**

- Hamımızı sarsıdan ağır bir faciə baş verdi, çox təəssüf edirəm. Xətai rayonunda belə hadisə olanda Milli Məclisdə millət vəkilləri tərəfindən məsələ qaldırılmışdı. Daha sonra Sumqayıtda olmuşdu. Yəni vaxtında bunun qarşısını almaq lazım idi. İndi yəqin istintaq orqanları araşdıracaq ki, kimdir günahkar, niyə bu materiallar istifadəyə verilib. Əgər doğrudan da bu, yanğına dözümlü material deyilsə, buna sertifikat, icazə necə verilib? Müvafiq qaydalara riayət olunubmu? Bütün bunlar araşdırılmalıdır. O hadisədən zərə çəkən əhaliyə dövlət, dövlət başçısı xüsusi qayğı göstərir, prezident sərəncamı ilə xüsusi komissiya yaradılıb, bunlar hamısı müsbət amillərdir. Mən hadisə zamanı həyatını itirən insanlara başsağlığı verirəm. Bu kimi hadisələrin bir daha təkrar olunmaması üçün ciddi ölçülər götürülməlidir. Bu hadisənin baş verməsində bilavasitə günahkar olanlar tapılmalıdır. Baş prokuror Zakir Qaralov bu barədə geniş məlumat verdi, istintaqın yekununda günahkarların cəzalandırılacağını söylədi. Amma digər tərəfdən, mən hesab edirəm ki, hökumət orqanları təmir-tikintiyə tələbkarlığı daha çox artırmalıdır. O cümlədən dövlət məmurları işlərinə daha ciddi yanaşmalıdır ki, Azərbaycanda bu kimi hadisələr, ümumiyyətlə, baş verməsin. Bu işlərin icrasına imkan və razılıq verən şəxslər, müəyyən dövlət qurumları olub, bunlar hamısı dövlət qarşısında cavab verməlidir.

**- Artıq üzlük materiallarının istehsalı ilə məşğul olan şirkətin rəhbəri həbs olunub...**

- Şirkət rəhbəri həbs olunub deyəndə ki...Mən bunu başa düşürəm. Amma bu, bir şirkətin bir binanı üzləməsi məsələsi deyil. Burda kiminsə mövqeyi var ki, həmin şirkət bu qədər binaların üzlənməsi ilə məşğul olub. Yəni bu, adi məsələ deyil. Fikir verdinizsə, Dövlət Bayraq Meydanının rəisini tutanda nələr aşkarlandı, üzə çıxdı. Hansı ki, bütün söküntü işlərini faktiki olaraq həmin şirkət aparırdı. Yəni bu da təkbaşına deyil, yəqin ona da arxa duran vəzifəli şəxslər var ki, ona dəstək olublar, Bakı şəhərində bu qədər iş görməyə imkan yaradıblar. Bakı Şəhər İcra Hakimiyyəti öz işində dönüş yaratmalıdır, bu sahələrə diqqəti daha da artırmalıdır, müəyyən qurumlar nəzarət mexanizmlərini həyata keçirməli, daha çox diqqətli olmalıdırlar.

**- Hadisə baş verən gün həm rayon, həm də paytaxtın icra başçısı səviyyəsində məsuliyyətdən qaçma cəhdləri müşahidə olundu. Onların məsuliyyəti nə qədərdir?**

- Fakt odur ki, biz ölən insanlarımızı geri qaytara bilməyəcəyik. O cümlədən xəsarət alanlarımızın ağrısını bölüşürük. Bizim üçün ən böyük bəla budur. Burada məsul şəxslər var, hansı ki, bu işlərə icazə, razılıq veriblər. İmkan yaradıblar ki, şirkət bu işlə məşğul olsun. Əgər bu, doğrudan da belə yanan material idisə, niyə onun istifadəsinə icazə verilirdi? Mən bilirəm ki, Azərbaycana Almaniyadan, Rusiyadan yaxşı materiallar gətirilir, onlar yanmır. Hətta 80-90 dərəcə istiyə də davamlı materiallardır, amma ondan istifadə edilmir. O materialları gətirən şirkətlər işləyə bilmədiyi halda, bu şirkət işləyir.

**- Dövlət obyektlərinin fasadlanması zamanı da həmin materiallardan istifadə olunub, yoxsa fərqlidir?**

- Konkret deyə bilmərəm, ola bilsin istifadə olunur. Mən bir dövlət obyektində olmuşam. Bunun qarşısı alınmalıdır. Hətta hansısa obyektlərdə yanğına dözümü olmayan belə materiallar vurulubsa, onlar hamısı ləğv olunmalıdır. Son illərdə Azərbaycanda quruculuq işləri zamanı üzlük daşlardan çox istifadə edilir, yanğına da davamlıdır, heç bir ciddi fəsadlar yaratmır. Yəni daha çox yerli materiallardan, yerli xammaldan istifadə etmək lazımdır.

**- Bu barədə Milli Məclisdə hansısa təşəbbüs, ya təkliflə çıxış edəcəksinizmi?**

- İmkan yaransa, əlbəttə, biz öz çıxışlarımızı edəcək, mövqeyimizi bildirəcəyik. Amma bu gün *(20 mayda-E.P.)* komitənin iclası idi, 2014-cü ilin dövlət büdcəsinin müzakirəsində də fikrimi çatdırdım. Əlbəttə, belə bir hadisə olmamalıydı, öz insanlarımızı itiridik, insanlar məhv olurlar, heç nədən gedirlər. Digər tərəfdən, Azərbaycanda Avropa Oyunları keçiriləcək, böyük, müsbət hadisələr gözlənilir, belə hallar müsbət hadisələrə ləkə gətirə bilər. Bunlar olmamalıdır, ancaq olmaması üçün dövlətin özəyində də nizam-intizamı bir qədər artırmaq lazımdır. Ciddi tələblər irəli sürülməlidir ki, hər kəs öz işi ilə məşğul olsun, belə hallar bir daha yaşanmasın.

**- Yanğın hadisəsində təxribat versiyası barədə də müzakirələr gedir. Düzdür, rəsmi səviyyədə bu ehtimal istisna edilir. İstənilən halda siz bu barədə nə deyə bilərsiniz?**

- O da istisna deyil. Hadisə axşamı mən Rusiya kanallarına baxırdım, bu kanallar hər bir saatdan, yarım saatdan bir geniş materiallar verir, yaxud titrdə xəbərlər keçirdi. Azərbaycanda baş verən 14 nəfər, daha sonra 16 nəfərin həlak olduğunu dedilər. Yəni bizi istəməyən qüvvələr təbii ki, canfəşanlıq edirlər. Əlbəttə, təxribat da ola bilər. Azərbaycanda böyük tədbir gözlənilir. Ölkəmizi tanıtmaq üçün bu tədbirin çox böyük siyasi əhəmiyyəti var. Burda təxribat da istisna olunmur. Amma Daxili İşlər, Milli Təhlükəsizlik nazirlikləri, Baş Prokurorluq yəqin ki, günahkarları tezliklə müəyyənləşdirib cinayətkarları üzə çıxaracaq.

**- Büdcədən bu kimi işlərin görülməsi üçün böyük miqdarda vəsait ayrılır. Hər il konkret olaraq nə qədər maliyyə nəzərdə tutulur?**

- Əlbəttə, bütün bu işlər büdcədən ayrılan vəsaitin hesabına yerinə yetirilir. Bu vəsait də az miqdarda olmamalıdır. Düzdür, son vaxtlar büdcəyə nəzarət mexanizmi genişlənir, fikir verirsinizsə, müəyyən hadisələrin qarşısı alınır, büdcədən düzgün istifadə olunması üçün işlər aparılır. Yəqin ki büdcədən bu sahəyə ayrılan vəsaiti diqqətdən keçirmək lazımdır. Əsas məsələ o vəsaitin ayrılması deyil, vəsaitin necə xərclənməsi, düzgün və keyfiyyətli qaydada istifadəsidir. Bilirsiniz, maliyyə məsələsini də, başqa hər şeyi də kənara qoymaq olar, amma ölən insanları geri qaytarmaq mümkün deyil. Düzdür, bu dəqiqə dövlət, dövlət başçısı çox böyük qayğı göstərir, amma itkilərimizi geri qaytarmaq mümkün deyil. Əsas dərdimiz ondan ibarət olmalıdır ki, elə təhlükəsiz şərait yaradaq, Azərbaycanda belə hadisələr baş verməsin.

**- Prezident komissiya yaradıb və məsələyə birbaşa nəzarət edir. Hadisə ilə əlaqədar cavabdeh məmurların həbsi gözləniləndirmi?**

- Onlar hamısı komissiyanın nəticələrindən asılıdır. Yəqin ki, dövlət başçısı bu məsələni nəzarətində saxlayacaq, müəyyən fikirlərini bildirəcək. Hətta dövlət başçısının yanğın yerində olduğu barədə xəbərləri oxudum.

**- Ölkədə matəmin elan olunması təklifinə nə deyirsiniz?**

- Artıq bu, dövlətin səlahiyyətində olan məsələdir.

❑ **Elşad PAŞASOY**

# İ.Stalin "murzilka"nı niyə oxuyurdu?

**Hüseynbala SƏLİMOV**



**Sosial verilişlərin sorağı gedib hətta Milli Məclisə çıxdı. Parlamentin bu yaxınlarda keçirilən iclaslarından birində deputatlar sosial verilişləri, onların aparıcılarını bir xeyli qınadılar...**

Bəs səbəb nədir? Əvvəla, onu demək lazımdır ki, sosial verilişlər indi elektron informasiya vasitələrinin başa apara biləcəyi yeganə mövzudur - siyasətdən demək olar ki, danışmaq və göstərmək mümkün deyil, tənqidi jurnalistika tam yox olmaq səviyyəsindədir... Belə bir vəziyyətdə yeganə mövzu - sosial problemlər qalırdı ki, jurnalistlər onunla məşğul olmaqla ali hakimiyyətin bir o qədər də narazı qalmayacağını düşünürdülər...

Ali hakimiyyət özü çoxdandır ki, oxunulmazlıq immunitetini təmin edib. Bu vəziyyətdə jurnalistlər özlərini elə aparırdılar ki, sanki ali hakimiyyətin gördüyü müsbət işləri, onun etimadını yerə vuran kiçik məmurları tənqid edib öz toxunulmazlıqlarını, həm də verilişlərinin reytinq problemini həll edəcəklər.

Amma görünür ki, heç də belə deyil...

Deputatlar belə bir detalı vurğuladılar ki, guya jurnalistlər dövlət orqanlarının görməli olduğu işlə məşğuldurlar, guya ki, həmin problemlərlə bağlı vətəndaşlar məhz aiddiyyətli orqanlara müraciət etməlidirlər...

Əslində jurnalistlər də problemləri həmin orqanlara müraciət etməklə həll edirdilər- ən azı ona görə ki, jurnalistlər dövlət məmurları deyillər və onların hökm, sərəncam vermək hüquqları yoxdur. Bu səbəbdən də əslində deputatların dilindən səslənən iradların heç bir əsası yoxdur...

Bizə elə gəlir ki, problem başqa məsələdədir. Dedik ki, sosial verilişlər böyük reytinq toplayırdı. Bu, məsələnin bir tərəfidir. Digər tərəfi odur ki, həmin verilişlərə çoxlu sayda insan müraciət edir və bu müraciətlərin əsasında hansı problemlərin mövcud olduğu aydınlaşır, məmurların yarıtmaz fəaliyyəti və bir çox hallarda tam etinasızlığı üzə çıxır, dövlət-vətəndaş münasibətlərinin incə məqamları faş olurdu...

Hökuməti də, deputatları da qorxudan elə budur. Medianın da fəaliyyəti elə təsəvvür yaratmalıdır ki, bu ölkədə heç bir problem yoxdur. Rəsmi telekanallar məhz belə işləyir. Hətta insanlar arasında belə bir zarafat dolaşır ki, kimin problemi yoxdursa, qoy, onda rəsmi kanallara baxsın. Böyük məsələlərdə özəl telekanallar da həmin bu çərçivəni gözləyirdilər. Bunu artıq qeyd etdik. Amma rəsmi kanallardan fərqli olaraq onlar sosial problemlərə toxunurdular və bir-iki verilişə baxanda sonra dərhal aydın olurdu ki, "cənnət görmək istəyənlərin" Azərbaycana gəlməsi elə də məsləhət deyil, çünki onlar cənnət əvəzinə əsl cəhənnəmlə rastlaşa bilərlər...

Bəziləri deyir ki, guya məmurlar jurnalistləri qısqanırlar. Amma düşünürük ki, bu məsələni kiçiltməkdir-məmurlar reallığın üzə çıxmasından ehtiyat edirlər...

Reallıq isə ən ağlagəlməz verilişlərdə belə üzə çıxa bilər. Arabir uşaq verilişlərinə baxırıq. Şükür edirik ki, onlar hələ bu hakimiyyətin diqqətini cəlb etməyib. Ona görə ki, bu verilişlərdə kiçik yaşlı uşaqlar gerçəkliyin elə tərəflərinə diqqət çəkirlər ki, adam mat-məəttəl qalır: düşünürsən ki, doğrudanmı, biz belə bir ölkədə yaşayırıq? Yox, demək istəmirik ki, həmin o uşaq verilişlərinə baxmasaq yaşadığımız ölkənin özəlliklərini bilmərik. Yox, belə deyil- hamı hər şeyi çox yaxşı bilir...

Sadəcə, uşaq verilişlərinə baxanda görürsən ki, hətta uşaqlar da artıq yaşadığımız ölkə və onun eybəcərlikləri qarşısında ağ bayraq qaldırıblar - onlar artıq indidən belə hesab edirlər ki, məhz bu cür də olmalıdır...

Adamı qorxudan da və dilxor edən də elə budur-əgər biz uşaqlara və yeniyetmələrə də ümid etməyəcəyiksə və bizim edə bilmədiklərimizi onların edəcəyinə inamımızı tamam itirəcəyiksə, onda heç yaşamağa dəyərmi?

Bu sətirləri yazırıq və ehtiyat edirik ki, uşaq verilişləri də məmurlarımızın diqqətini çəkər. Deyilənə görə, İ.Stalin uşaqlar üçün nəzərdə tutulan qəzetləri və jurnalları da oxuyurmuş...

Qayıdaq əsas məsələyə. Sosial verilişlər qapansa, nə baş verər? Onda birmənalı şəkildə demək olar ki, artıq sovet çağlarına qayıtmışıq. Nə fərqi var? Sovetlərin vaxtında bir senzura idarəsi vardı, hamının da yolu oradan keçirdi. İndi az qala hər bir telekanalda bir senzor oturub- vacib deyil ki, o, məhz belə adlansın, əsas odur ki, o, nəyi efirə verib-verməmək məsələsini həll edir...

Ona görə də çox kədərli ölkədir. Belə alınır ki, bu ölkədə hər şey bir təəssürat yaratmalıdır: "Paris əhli kef edir!"...

YENİ MÜSAVAT
N 109 (6137) 21 may 2015

# Molotov üzlüyü



Zamin HACI
zaminhaci@gmail.com

"Əgər yanlış yaşadığınıza görə sizi qınayan insanları öldürməklə onları dayandıra biləcəyinizi düşünürsünüzsə, yanılırsınız"

**(Platon, "Sokratın müdafiəsi" əsərindən)**

****

**Bütün saxtakarlar, timsahlar, yaltaqlar yenidən iş başındadır. Əslində həmişə yerlərində olurlar, sadəcə bəzən faciələrimizin tüstüsü onları gözdən yayındırır. Faciələrimiz bizi də aldadır. Elə bilirik daha həmrəyik, daha dərd bizi birləşdirib, yumruq kimi olacağıq, cinayətkarların ağzının payını verəcəyik. İllüziyadır. İnsanları "Allah bunların cəzasını verəcək" deyə aldatmaq kimi bir şeydir. İnsanları dünyada ədalətin olmasına, haqqın mütləq qalib gələcəyinə inandırmaq kimi mifoloji, əfsanə söhbətdir. Bilməlisiniz ki, yaşadığımız kainatda heç də həmişə həqiqət, doğru qalib gəlmir. Bilməlisiniz ki, bəzən kaftarlar yaşayır, körpə çiçəklər isə həlak olur.**

Sual yarana bilər ki, bəs o zaman mübarizənin mənası, anlamı nədir. Xədicə İsmayıl kimi insanlar niyə repressiya aparatı ilə direşirlər, sona qədər savaşırlar? Tofiq Yaqublunu niyə sındırmaq mümkün deyil? Yadigar Sadıqlı, İlqar Məmmədov, Rəşadət Axundov və başqaları *(etiraf edim ki, burda "və başqalarını" ürək sıxıntısı ilə yazdım, çünki bu adamlar belə şablon ümumiləşdirmələrə layiq deyillər, onlar hər biri fərdi, tənha qəhrəmandır)* nə üçün tutduqları yoldan dönmür? Məncə bu sualın bircə cavabı var: yol onlara ləzzət verir. Necə deyərlər, prosesdən zövq alırlar. Mübariz insanın mübarizədən aldığı həzzi tarakanlar və həşərat kimi ömür sürənlər əlbəttə, anlaya bilməzlər.

Azadlıq prospektindəki faciəni unutdurmaq istəyirlər, buna da nail olacaqlar. Çünki klassik model var: repressiv rejimin qalib gəlməsini istəyirsənsə birinci, ilk növbədə kütləvi informasiya vasitələrini məhv elə. Acı da olsa bunu bacardıqlarını yazmalıyam. Amma izah etmədən. Çünki izah eləmək artıq qadağan zolağını adlamaqdır.

Diqqət edin, ilk gün penoplast üzlüklərin söküləcəyini vəd elədilər, amma dünən artıq Bakı ŞİH-in artist şefinin dilindən "ekspertiza aparılacaq, yanğın təhlükəsi olan üzlüklər söküləcək" açıqlaması verildi. Yəni, sökməyə də bilərik. Arxayın olun ki, biz sussaq, tələb eləməsək sökməyəcəklər. Hər binaya mühafizə ayırmaq kimi karikatur təklif isə biabırçılıqdır. O cümlədən, bəzi deputatların "Avropa Oyunlarına qədər üzlüklər qalsın, qorunsun, sonra sökülsün" təklifi azərbaycanlılara açıq həqarət idi. İnsan həyatı ilə oyun oynayırlar...

Qorumaq demişkən... Bunlar hələ də guya anlamır ki, o üzlükləri qorumaq mümkün deyil. Üstündəki elektrik işıqları xəttində qısaqapanmadan, kiminsə ehtiyatsız bir siqaretindən, mətbəxdən düşən qığılcımdan - hər şeydən yana bilən materialdır. Son faciədə bəziləri yanğınsöndürənləri gec gəlməkdə qınadılar. Halbuki, bütün faciə cəmi 25-30 dəqiqəyə olmuşdu, heç bir xidmət bu sürətə çata bilməzdi. Xətai rayonunda iki ay qabaq olan bənzər yanğının unikal bir videosu var, istəyənlər "Azadlıq" radiosunun saytında tapıb baxa bilər. Maşınla yoldan keçən adam çəkib. 9 mərtəbəli binanın bütün üzlüyü cəmi 10-15 saniyədə yanıb qurtarır! Dəhşətli bir yanğın sürətidir. "Azadlıq"dakı 16 qatlı bina da eyni sürətlə yanıb və əslində ilk 5-10 dəqiqə yanğından sonra insanları öldürən zəhərli qara tüstü olub. Yaralıların demək olar hamısının xəstəxanaların yanğın bölməsinə yox, toksikoloji bölmələrə yerləşdirilməsi bu səbəbdəndir. Adamlar zəhərləniblər, yanğın sonrası qazlardan boğulublar.

Bir versiyamı da yazım. İki ay qabaqkı yanğında sizcə niyə ölüm olmadı? Mənim fikrim belədir: insanları soyuq hava xilas eləmişdi. Pəncərələr bağlı olduğundan sürətli yanğının qara tüstüsü mənzillərə dolmamışdı. 16 mərtəbədə yanğın isə isti vaxta düşdü, görünür yazıq insanlar qapı-pəncərələrini açıq qoymuşdular.

Penoplast sexinin müdirinin tutulması şousuna gələndə... Özləri də etiraf edir ki, Bakıda azı 140 binaya bu tip üzlüklər çəkilib. Bəyəm bunların hamısını həmin Miryusif eləyib? 140 binanın üzlənməsi tenderlərini kim keçirib, məhsulu, üzlənmiş binanı kim təhvil alıb? Yüzlərlə adam yaşayan binanı sabah hansısa yoldan keçən benzin hopdurulmuş əski ilə üzləsə, buna yox deyən olmayacaqmı? Polis belə hallarda hara baxır? Yanar üzlükləri sökməyə çağıran jurnalistləri qorxutmaq polisin funksiyası deyil. Polis vaxtında həmin cinayətkarları tutmalı idi. Yandırıcı butulka ittihamı ilə NİDA-çı gənclərə 2 ildir həbsdə zülm edirsiniz, amma 16 mərtəbəli binaları yandırıcı üzlüyə bürüyənləri görmürdünüz. Guya görmürdünüz.

# Şərqi Avropa uğrunda ABŞ-Rusiya savaşı böyüyür

## Orxan Qafarlı: "Bölgə 200 ildir bu iki gücün rəqabət meydançasıdır..."

**Makedoniyada hökumətin istefası tələbləri ilə etirazlar davam edir. Nümayişçilər bəyan edib ki, aksiyalar hökumət istefaya gedənədək səngiməyəcək. Etirazçılar baş nazir Nikola Gruevskinin istefasını və hökumətin buraxılmasını tələb edirlər. Qeyd edək ki, hər şey ötən həftə 2 milyon əhalisi olan Makedoniyanın 500 min nəfərə yaxın etnik albanın yaşadığı bölgələrindəki etirazlarla başlayıb.**

Qarşıdurmalarda çoxlu sayda insan ölüb və yaralanıb. Hökumət toqquşmaları yatırmaq üçün əraziyə ordu qüvvələri yeridib. Ancaq az sonra hökumətin istefası tələbləri ilə müxalifətin kütləvi etiraz aksiyaları başlayıb.

Rusiya mətbuatı proseslərin arxasında Qərbin, daha dəqiqi, ABŞ-ın dayandığını iddia edir. Bildirilir ki, Makedoniya baş naziri Rusiyanın irəli sürdüyü "Türk axını" kəmərinə dəstək verəndən az sonra onun hökumətini ifşa edən korrupsiya dəlilləri və seçkilərin saxtalaşdırılmasına hazırlıqları əks etdirən plan müxalifətə ötürülüb. Bir neçə gün əvvəl isə ABŞ-ın Balkanlardakı forpostu olan Kosovodan sızan naməlum silahlı qrup Makedoniyanın sərhədyanı Kumanovo qəsəbəsində təhlükəsizlik qüvvələri ilə döyüşə girib. Nəticədə azı, 8 xüsusi təyinatlı polis həlak olub. Silahlı qrup da itki verib. Makedoniya hakimiyyəti silahlı qrupun ABŞ təlimatçılarının təlim keçdiyi alban yaraqlıları olduqlarını bildirir.

Ekspertlər isə hadisələrin qurulmuş ssenari olduğunu düşünür və hesab edirlər ki, ABŞ hazırkı Makedoniya hakimiyyətini devirməklə onun Rusiyanın qaz layihəsindəki iştirakına mane olmağa çalışır. Hazırda ABŞ açıq şəkildə həm Makedoniya, həm də Yunanıstan hakimiyyətlərinə "Türk axını" layihəsinə deyil, TANAP layihəsinə qoşulmaları üçün təzyiq edir. Makedoniya hadisələri ABŞ-ın siyasi gücünü bir daha üzə çıxarıb.



Orxan Qafarlı

**Yeni Türkiyə Araşdırmaları Mərkəzinin Avrasiya üzrə eksperti Orxan Qafarlı deyir ki, Şərqi Avropa ölkələri, Qərb və Rusiya arasında 200 ildir bir rəqabət meydançasıdır. Ekspertə görə, "soyuq müharibə" dövründə olan qısamüddətli sabitlik yenidən pozulub:** ""Soyuq Müharibə" illərində SSRİ zorla da olsa 40 il bu bölgəni öz nəzarətində saxlaya bildi. Ancaq indi durum yenidən gərginləşib.

Sual verilə bilər ki, nə üçün Şərqi Avropa ölkələri bu qədər önəmlidir Rusiya üçün? Məsələ burasınadır ki, Şərqi Avropa ölkələri Rusiyaya Avropada polis rolunu oynamağa yardımçı olan bir regiondur. Rusiya geopolitik baxışında Şərqi Avropa Rusiyanın milli təhlükəsizliyində önəmli rolu olduğu qədər də Mərkəzi Avropada polis rolunu oynamağa yardımçı olan bölgədir. "Soyuq müharibə" illərində Qərb Şərqi Avropanın SSRİ-nin əlində olmasından o qədər narahat olmuşdu ki, qısa mənzilli nüvə silahlarını Mərkəzi Avropaya yerləşdirmişdi. ABŞ-ın Şərqi Avropanı SSRİ-dən almaq üçün Ağ Evdə Milli Təhlükəsizlik Şurasının 68 nömrəli məşhur hesabatı var. Bu hesabatı 1975-ci ildə Kissincer açıqladı. Əslində o gündən bu günə ABŞ-ın Şərqi Avropada siyasəti heç dəyişmədi. Şərqi Avropa ABŞ üçün Mərkəzi Avropanı və Rusiyanı öz nəzarətində saxlamaqda önəmli bir regiondur. Avrasiya regionun döyünən ürəyidir".

**O.Qafarlıya görə, Ukrayna böhranından sonra Rusiya Şərqi Avropanın önəmli bir ölkəsini - Moskvanın Qərbə açılan qapısını itirmə təhlükəsi ilə üz-üzə qalıb:** "Eyni zamanda "Cənub axını" qaz kəməri ilə bağlı Bolqarıstan üzərində Brüssel və Vaşinqtonun təzyiqlərinin artması ilə Sofiya layihədən geri çəkildi".

**Qafarlı deyir ki, məhz bu hadisələrdən sonra Rusiya Şərqi Avropada daha aktiv və ya təftişçi xarici siyasət yürütməyə başlayıb:** "SSRİ zamanı əlaqəsi sıx olan sol qruplara yardımlar etməyə başladı. Mərkəzi Avropa da millətçi qruplarla işləməyə başladı. Çünki bu dəfə reallaşdırmaq istədiyi qaz layihəsi olan "Türk axını"nın təhlükəsizliyini təmin etmək üçün borunun keçəcəyi ölkələrdə təhlükəsizlik təminatı lazımdır. Bunun üçün Yunanıstan, Makedoniya, Serbiya, Macarıstan, Rusiya üçün strateji əhəmiyyəti olan ölkələrdir. Yeni "Soyuq müharibə" dönəmində təzədən bu ölkələr üzərində rəqabət davam edir. Bu dəfə AB-nin uzun zamana dayanan uğursuz iqtisadi münasibətləri də bu ölkələrdə Rusiya tərəfdarlarının artmasına səbəb oldu. Mərkəzi və Qərbi Avropa ölkələrində olan iqtisadi vəziyyət bu ölkələrə sirayət etmədi. Bu ölkələrdə iqtisadi böhranları aşmaq və yeni iş yerlərinin açılması ilə bağlı ümidlər Rusiya qazının tranzitindən gələn gəlirə bağlanır. Eyni zamanda Rusiya bu ölkələrə xüsusi maliyyə yardımları söz verir. Makedoniyada hökumətin devrilməsinin qarşısını bu iqtidara maddi və kəşfiyyat məlumatları ötürməklə almağa çalışır. Öz növbəsində ABŞ bunun qarşısını almaq üçün Rusiyaya yaxınlıq göstərən hökumətləri devirmək üçün hərəkətə keçib. Vaşinqton Rusiyanın əl-qolunu bağlamaq və qaz layihələrinin reallaşmasının qarşısını almaq niyyətində ciddidir".

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Hüquq müdafiəçisi 28 mayda əfv olacağına ümidlidir

## Mirvari Qəhrəmanlı: "Tofiq bəyin azadlığa çıxma ehtimalı yüksəkdir"

**28 Maya - Respublika gününə bir həftə qaldı. Bütün bayramlarda olduğu kimi, bu bayramda da əfv ümidləri var. 28 mayda bir çox siyasi məhbusun azadlığa buraxılacağı barədə xəbərlər yayılmaqdadır. Məhbusların azadlığa buraxılması istiqamətində kifayət qədər ciddi işlər görən İnsan Haqları üzrə Birgə İşçi Qrupu artıq əfv siyahısını aidiyyəti orqanlara təqdim edib. 15 nəfərlik siyahıda əsasən, barələrində məhkəmə qərarı olan siyasi məhbusların adı yer alır.**



Mirvari Qəhrəmanlı

**Qurumun üzvü Mirvari Qəhrəmanlı** Respublika günündə əfv olacağına ümidlidir: "Bu ərəfədə QHT rəhbərləri bir dəfə yığışıb. Orada müzakirələr aparmışıq. Mətbuatda bu barədə xəbər getmişdi. Prezidentə Tofiq Yaqublu ilə bağlı müraciət etdik. Mehriban xanıma da müraciət etmişik. Siyahı verərək, xahiş etmişik ki, bu şəxslərin azadlığa çıxmasında bizə kömək etsin. Düşünürəm ki, 28 mayda əfv olacaq. Ümidliyəm ki, çox məhbus azad olunacaq. Onsuz da 100 nəfərə qədər insanı əfvə salacaqlar. Çox istərdim ki, onların içərisində siyasi məhbuslar daha çox olsun. Tofiq Yaqublunu evində görmək istəyirəm. Həmkarlarımı azadlıqda görmək üçün çox darıxıram. Hamımız çox əzab çəkirik. Yəqin ki, gələn həftə əfv olacaq".

**Hüquq müdafiəçisi Tofiq Yaqublunun azadlığa buraxılma ehtimalının yüksək olduğunu söylədi:** "Tofiq bəyin azad olunacağına çox inanırıq. Çünki siyasi partiyalar, deputatlar müraciət etdilər. Biz ayrı ərizə yazdıq. Digər məhbuslara nisbətən Tofiq bəyin azadlığa çıxma ehtimalı yüksəkdir".

**Mirvari Qəhrəmanlı təqdim etdikləri əfv siyahısından da söz açdı:** "Novella xanım 15 nəfərlik siyahı deyir. Nəzərə almaq lazımdır ki, noyabrdan bura İşçi Qrupunun üç toplantısı olub və çoxlu məhbusun məsələsi müzakirə olunub. Biz hər bir müzakirə olunan məhbus üçün təqdimat yazmışıq. Həmkarlarımız, xəstə olanlar, barələrində Avropa Məhkəməsinin qərarı olan şəxslər barədə çoxlu xahişlərimiz olub. Hesab edirəm ki, bu adamların çoxunun əfvə düşmə ehtimalı çoxdur. Çünki qarşıdan Avropa Oyunları gəlir. Respublika günü Azərbaycan üçün böyük önəm kəsb edir. Heç birimiz istəmirik ki, beynəlxalq təşkilatların siyahısında ölkəmizin adı bu qədər hallansın. Hansı beynəlxalq tədbir olursa, orada Azərbaycanın adı çəkilir. Əfv olarsa, çoxlu insan azadlığa çıxarsa, düşünürəm ki, ölkəmizin imici üçün böyük önəm kəsb edəcək".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 109 (6137) 21 may 2015

# Bakı-Qərb münasibətləri qırılma həddində



# İlham Əliyevin Avropa Birliyinə qarşı demarşı - nə baş verir ...

## Azərbaycan prezidenti son anda Avropa Birliyinin tərəfdaşlıq sammitinə qatılmaqdan vaz keçdi; Avropa Oyunları məsələdə nə dərəcədə aparıcı rol oynayıb - ölkə başçısının qərarının pərdəarxası bu yazıda...

**Bu gün Latviyanın paytaxtı Riqada Avropa Birliyinin "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində növbəti sammit öz işinə başlayacaq. Sammitə Fransa prezidenti Fransua Olland, Almaniya kansleri Angela Merkel və digər Avropa liderləri də qatılacaq.**

Az öncə xəbər verildiyi kimi, ali toplantıda Azərbaycan da daxil, 6 tərəfdaş ölkə, o cümlədən Ermənistanın ən yüksək səviyyədə təmsilçiliyi gözlənilirdi. Bəzi informasiyalara görə, Riqada hətta Azərbaycan və Ermənistan dövlət başçılarının təması istisna olunmurdu. Bugünkü zirvə toplantısı ilə bağlı ən mühüm məqam isə "tərəfdaş dövlətlər"in Rusiyanın məlum sərt hədələrinə rəğmən, Riqa sammitində yüksək səviyyədə iştirakda maraqlı olması sayılırdı.

Lakin dünən bəlli oldu ki, Azərbaycan prezidenti İlham Əliyev son anda Riqaya getməkdən imtina edib. Bu barədə prezidentin ictimai-siyasi məsələlər üzrə müşaviri Əli Həsənov bildirib. Bəzi müşahidəçilər imtinanı ilkin olaraq, Bakıdakı 19 may faciəvi olayı və Avropa Oyunlarına hazırlıq işləri ilə bağlasalar da, az sonra dəqiq səbəb aydın olub.

**Belə ki, APA-nın diplomatik qaynaqlardan əldə etdiyi məlumata görə, prezidentin Riqa sammitində iştirak etməməsi "son zamanlar Qərbdə Azərbaycana qarşı aparılan qərəzli kampaniyaya, Avropa mərkəzlərindən idarə olunan QHT-lərin geniş anti-Azərbaycan fəaliyyətinə reaksiyadır".** Mənbə bu xüsusda bildirir: "Məlumata əsasən, Azərbaycanla strateji tərəfdaşlıq əlaqələrinin inkişafında maraqlı olduqlarını iddia edən Qərb dairələrinin yaxından iştirakı ilə I Avropa Oyunları ərəfəsində Azərbaycana qarşı "qara piar" kampaniyasının genişləndirilməsi haqlı hiddət doğurur".

Agentliyin əldə etdiyi digər bilgiyə görə, bir müddət əvvəl Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov Avropa Birliyinin ölkəmizdəki ofisinin rəhbəri Malena Mardı dəvət edərək, Avropa Parlamentinin *(Avropa Birliyinin əsas qurumu - red.)* Azərbaycana qarşı fəaliyyətini genişləndirməsinə öz etirazını çatdırıb və mayın 12-də Avroparlamentdə Azərbaycana dair keçirilməsi planlaşdırılan dinləmələrin dayandırılmasını ondan tələb edib. Qurumun nümayəndəsinə bildirilib ki, tədbir dayandırılmayacağı təqdirdə Azərbaycan prezidentinin Riqa sammitində iştirakı sual altına düşəcək.

Diplomatik mənbələr onu da qeyd edir ki, anti-Azərbaycan ovqatının genişləndiyi Qərblə Bakının strateji tərəfdaşlığı artıq mümkünsüz hala gəlir. "Azərbaycan hakimiyyəti 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsi ərəfəsində olduğu kimi, I Avropa Oyunlarına bir neçə gün qalmış da Avropa Parlamentinin Azərbaycana qarşı yeni qətnamə qəbul edəcəyi barədə məlumat alıb. Prezident İlham Əliyev də məhz bu amilləri nəzərə alaraq Riqa sammitində iştirakdan imtina edib" - mənbə əlavə edib.

***

Beləliklə, hakimiyyətə yaxın qaynaqların məlumatlarını əsas götürsək, Azərbaycan prezidentinin Riqa sammitinə qatılmamasının qayəsində Avropa Oyunları ərəfəsi Azərbaycan hakimiyyətinə qarşı Qərbdə sərt ritorikanın nəinki yumşalmaması, əksinə, daha da güclənməsi durur.

Maraqlıdır ki, sammitdən bir gün qabaq - mayın 20-də Riqada Avropa Birliyinin "Şərq Tərəfdaşlığı" Proqramına üzv ölkələrin Media Konfransı işə başlayıb. Konfransda əsas müzakirə mövzusu Azərbaycan, Ermənistan, Belarus, Gürcüstan, Moldova və Ukraynada medianın durumu olsa da, hədəf kimi daha çox rəsmi Bakı götürülüb.

Bunu çıxışlardan da görmək mümkündür. İstisna deyil ki, Azərbaycan rəhbərliyinin imtina qərarı verməsinə bu amilin də təsiri olsun. Hərçənd, Ermənistan və Belarus hökumətləri də media azadlıqlarının durumuna görə yetərincə tənqidə məruz qalıb. Bundan əlavə, media konfransına təmsilçi ölkələrdən 350-yə yaxın siyasətçi, media eksperti, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, jurnalistlər qatılıb ki, onların da bir çoxunun Azərbaycan iqtidarı ilə gərgin münasibətləri var.

Məsələn, xüsusi qonaqlar sırasında Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə komissarı Yohannes Han, Latviyanın sabiq prezidenti və Madrid Klubunun prezidenti Vayra Vike-Freyberqa, Latviyanın mədəniyyət naziri Datse Melbarde, Avropa Şurasının insan hüquqları üzrə komissarı Nils Muizniekslə yanaşı, hakimiyyətə qarşı olduqca sərt mövqeyi ilə seçilən ATƏT-in söz və mətbuat azadlığı məsələləri üzrə nümayəndəsi Dunya Miyatoviç də var.

Azərbaycan nümayəndə heyətinin tərkibi də genişdir. Bura AzadlıqRadiosunun Azərbaycan xidmətinin Bakı Bürosunun rəhbəri Zeynal Məmmədli, "Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev, "Ayna-Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı, "Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev, "İnternews-Azerbaijan"ın rəhbəri İlham Səfər, Jurnalistlərin Həmkarlar Təşkilatının sədri Müşfiq Ələsgərli, hüquq müdafiəçisi Əhməd Şahidov, Media Hüququ İnstitutunun keçmiş rəhbəri Rəşid Hacılı, İREX -in Azərbaycan bölməsinin rəhbəri Ələsgər Məmmədli, Yadigar Məmmədli daxildir.

Yoxsa belə bir sual bir müddət açıq qalacaq ki, necə oldu Rusiyanın hədəsi İrəvanın da deyil, 6 paytaxtdan yalnız Bakının mövqeyinə təsir elədi, motiv doğrudanmı təkcə Avropa Oyunlarıdır?

Lakin obyektivlik naminə deməliyik ki, bizim bir qəzet olaraq gördüyümüz nüanslar, ölkəmizin çıxarlarını, hətta bu hakimiyyətin, onun rəhbərinin çıxarlarını iqtidar ideoloqları, xüsusilə prezident də görməyə bilməz. O zaman buradan belə bir nəticə hasil olur ki, prezident Əliyev daha fərqli və bizim bilmədiyimiz məlumatlardan çıxış edərək, Avropa Birliyinə qarşı belə bir demarşa imza atır.

Baş verənlər xüsusi və fövqəladə xarakterli hadisələrdəndir; burada yalnız tənqid-təftiş, hətta təhlil də ciddi rol oynamır. Burada bir ölkənin prezidentinin olduqca kritik bir məqamda Avropa Birliyi kimi qüdrətli bir quruma qarşı çıxmasının hansı məlumat və faktorlardan qaynaqlanmasını bilmək, dünyada gedən qlobal proseslərin Azərbaycana təsirlərini öyrənmək lazımdır.

***

Əlbəttə ki, Azərbaycanın Riqa Tərəfdaşlıq Sammitində ən yüksək səviyyədə iştirakı bir çox amillərə görə milli maraqlarımız üçün faydalı olardı. Bu, həm də zamanın imperativi idi. Toplantıda işğalçı Ermənistanın başçısı Serj Sərkisyanın iştirakı isə İlham Əliyevin qatılmaq qərarının lehinə işləyən digər motiv idi. Hər halda, Azərbaycan əleyhinə, Qarabağ əleyhinə ortaya çıxacaq hansısa iddialara, ittihamlara yerindəcə - Riqada cavab vermək daha məqbul görünür. Yəni tribuna məsələsi.

Nəhayət, Riqa sammitində iştirak Azərbaycan iqtidarının həqiqətən də müstəqil xarici siyasət kursu apardığının təzahürü olardı.

Əliyevlərin iqtidarda olduğu 22 illik dönəmdə onun opponentləri dəfələrlə Heydər və İlham Əliyevlərin qərarlarını tənqid etmiş, qınamışlar. Lakin sonradan məlum olub ki, kəskin tənqid olunan bu qərarlar mövcud hakimiyyəti ya ciddi təhlükələrdən qoruyub, ya da onun mövqelərini daha da möhkəmlədib. Təəssüf ki, eyni şeyi onların dəyişməz opponentləri, siyasi rəqibləri haqda demək mümkün deyil. Müxalifət düşərgəsi son 10 ili olduqca zəif göstəricilərlə başa vurub.

**Prezidentin son qərarının və Avropa demarşının nəticələrini obyektiv qiymətləndirmək üçün də, görünür, zamanın keçməsi lazım gələcək.**

❑ **Siyasət şöbəsi**

# Müxalifətdən prezidentin Riqaya getməməsinə iki reaksiya

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 21-22-də Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramının üzvü olan ölkələrin Riqa Sammitində iştirak edə bilməyəcək. Bunu AzərTAc-a Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib.**

O qeyd edib ki, birinci Avropa Oyunlarının başlanmasına çox az vaxt qaldığına və bu mühüm tədbirə hazırlıq işləri son mərhələyə qədəm qoyduğuna görə Azərbaycan prezidentinin qrafiki həddən artıq sıxlaşıb. Buna görə də dövlət başçısı sammitdə iştirak edə bilməyəcək. Prezidentin köməkçisi bildirib ki, sammitdə Azərbaycanı Prezident Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov və xarici işlər naziri Elmar Məmmədyarov təmsil edəcəklər.

**Müsavat Partiyasının Məclis sədri, professor Nüşabə Sadıxlı bildirdi ki, dövlət başçısının sammitdə iştirakı daha arzuolunan idi:** "İlham Əliyev orda iştirak etməli idi. Müsavat Partiyasının Divanında da biz bu qərara gəldik ki, İlham Əliyevin mütləq bu sammitdə iştirak etməsi barədə müraciət edək".



**Nüşabə Sadıxlı:** "Sammitdə yüksək səviyyədə təmsil olunmağın daha çox önəmi var idi"



**İqbal Ağazadə:** "Mən prezidentin iştirakını təqdir edərdim"

**Əvəzində Azərbaycanın iki yüksək çinli məmurunun toplantıya qatılacağına münasibət bildirən N.Sadıxlı əlavə etdi ki, istənilən halda ölkə rəhbərinin şəxsən iştirakı daha faydalı olardı:** "Sammitdə yüksək səviyyədə təmsil olunmağın daha çox önəmi var idi".

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə də hesab edir ki, dövlət başçısının Riqa sammitində iştirakı olduqca vacib idi:** "Mən prezidentin iştirakını təqdir edərdim. Getməmə səbəblərini bilmirəm. Biz Avropanın bir hissəsiyik və mütləq bu sammitdə iştirak etməliydik. Bu, bizim gələcəyimiz, təhlükəsizliyimiz üçün də vacib idi. Hər halda, hakimiyyət bu gün xarici siyasəti gerçəkləşdirən qurumdur və xarici siyasətin detalları, prioritetləri barədə daha çox bilgili, informasiyalıdırlar. Lakin hesab etmirəm ki, bu, üzünü Rusiyaya çevirməkdir, Azərbaycanın xarici siyasət kursunun dəyişməsi, yaxud Rusiyanın yanında yer almaqdır. Bu, Avropa Birliyindən və Avropa ölkələrindən gözləntilərin daha fərqli şəkildə ifadəsidir. Yəni fərqli şəkildə ifadə olunur ki, biz də sizdən ayrı şeylər gözləyirik, amma bu, baş vermir. Ona görə də belə yanaşma var, amma dediyim kimi, bu, Avropa coğrafiyasından çıxmaq və Avropanın yanında olmaqdan imtina deyil. Amma çox istərdim ki, iştirak edilsin".

**İ.Ağazadə XİN başçısının tədbirdə iştirakını nəzərdə tutaraq əlavə etdi ki, hər halda, xarici siyasət idarəsinin rəhbəri də ölkənin xarici siyasətinin ifadəçisidir:** "Olsun, görək Azərbaycan bundan nələr əldə edəcək".

❑ **ELŞAD**

YENİ MÜSAVAT
N 109 (6137) 21 may 2015

**Azərbaycanın tanınmış televiziya aparıcısı, "Sən tək deyilsən" telelayihəsinin müəllifi və sunucusu Xoşqədəm Hidayətqızı və ömür-gün yoldaşı, Türkiyənin tanınmış pop ulduzu Doğuş (Orhan Baltaçı) "Yeni Müsavat"a müsahibə veriblər. "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlunun da iştirak etdiyi yeməkli söhbətdə maraqlı nüanslara toxunulub, hər kəsin marağına səbəb olacaq məsələlərdən danışılıb.**



# "Mən iddialı, karyera düşkünü olan xanımam"

## **Xoşqədəm Hidayətqızı:** "Onu mənimlə görüşdürən insana ömrüm boyu minnətdar olaram"

**Müsahibənin ikinci hissəsini təqdim edirik:**

*(əvvəli ötən sayımızda)*

***- Elgiz Əkbərlə birlikdə "Sən tək deyilsən" verilişini təqdim etdiz, elə bir gün sonra isə həmkarınız verilişdən ayrıldı. Şayiələr yayıldı ki, Elgiz Əkbər sizə görə verilişdən imtina edib, doğrudurmu?***

- Bu fikir tamamilə yanlışdır. ANS-in rəhbərliyi belə qərara gəldi ki, ilk canlı efirim olduğundan Elgiz mənə dəstək olsun. Beləliklə, ilk verilişə birgə çıxdıq. Efirə baxan da görür ki, verilişin hər bir nüansı, o cümlədən "şapka"sı mənə aiddir. Elgiz ANS-in əsas simalarından biridir və bu yaxınlarda özünün möhtəşəm layihəsi ilə tamaşaçıların qarşısına çıxacaq. Aparıcılar arasında söz-söhbət, qalmaqal başqa televiziyalarda baş verə bilər, lakin belə şeylər ANS-ə aid deyil, çünki burda yalnız peşəkarlar fəaliyyət göstərir. Mən çox xoşbəxtəm ki, ANS-də işləyirəm.

### Timaşenkodan daha parlaq və gözəl...

***- Sanki saç düzümünüzlə Ukraynanın sabiq baş naziri Yuliya Timaşenkonu təqlid edirsiz...***

- *(Gülür)* Bir dəfə bir dostum mənə indi xatırlamadığım məşhur aktrisanın şəklini göstərib dedi ki, ona çox bənzəyirəm. Hörüklü saç düzümünü ilk dəfə oradan götürdüm və iki ilə yaxındır ki, saçıma bu üslubda düzən verirəm. Mənə belə çox rahat olur, efir zamanı saçlarım üzümə tökülmür. İndi baxıram məndən sonra bir çox aparıcılarda da bu cür hörük dəb halını alıb.

***- Nədənsə sizi Timaşenkoya bənzədəndə təəccüblənmədiz...***

- Çünki bu sözü çox adamdan eşitmişəm...Ukraynada olarkən mənə çoxlu sayda milli geyimlər hədiyyə etdilər. Əgər o geyimlərdən birini geyinib, bu cür saç düzümü etsəm, yəqin ki, daha çox bənzəmiş olaram.

**Doğuş müdaxilə edir:**

- *(X.Hidayətqızına üzünü tutaraq)* Sən ondan daha parlaq və gözəlsən.

**X.Hidayətqızı:**

- Bu yaxınlarda mənə Ukraynada seriala çəkilmək təklifi də gəldi.

***- Razılaşdız?***

- Doğuş icazə vermədi.

***- Hansı verilişləri izləyirsiz?***

**Doğuş:**

- Məndən fürsət tapıb televiziyaya baxa bilir ki? *(gülür)*

**X.Hidayətqızı:**

- Buna həqiqətən vaxtım olmur, efir, çəkilişlər, idmanla məşğul olmaq və s. kimi işlərim çoxdur. Fürsət tapanda yalnız "Hesabat"a baxıram.

***- Yalnız Doğuş bəy bura gəlir, yoxsa siz də onun vətəninə gedirsiz?***

- Bəzən olur ki, hər şeydən bezirəm. Bu zaman başımı götürüb Türkiyəyə qaçıram.

***- Kimin yükü daha çoxdur?***

**Doğuş:**

- Mənim.

**X.Hidayətqızı:**

- Mənim *(gülür)*. Doğuş adətən bu vaxtları xaricdə konsertlər verir. Hətta bugünlərdə konsertlə əlaqədar Almaniyada olmalıydı, lakin onu getməyə mən qoymadım.

***- Niyə?***

- Burda təkcə necə qalım? *(gülür)*.

***- Hansısa aparıcının pərəstişkarı olmusunuzmu?***

- Yadımdadır, uşaqlıq çağlarımda efirdə Roza Tağıyeva, Ofeliya Sənani, Şərqiyyə xanım kimi diktorlar var idi. Mən daha çox Roza Tağıyevaya pərəstiş edirdim. Hamıya deyirdim ki, mən də gələcəkdə onun kimi aparıcı olacam. Təəssüf ki, hələ də onunla görüşmək fürsətim olmayıb. Yalnız bir dəfə telefon danışığımız oldu, onda da Roza xanımın səsini eşidəndə bərk həyəcanlandım və yalnız ağlaya bildim. Təsəvvür edin ki, həmin o gözəl, məlahətli səs yenə də öz yerində qalıb. Əgər kimsə məni onunla görüşdürərsə, ömrüm boyu o insana minnətdar olaram.

### "Melekler bile bize sayğı duyor..."

***- Doğuşun hansı mahnısını sevirsiz?***

- Daha çox mənə yazdığı mahnını.

***- Həmin mahnıdan bir parça oxuya bilərsinizmi?***

*(Birlikdə oxuyurlar)*

***- Dualar gönderdim yaradanıma,***
***Melekler yardım etdi sol yanıma.***
***Əgər beklemem gerekirse***
***Kalbim durana kadar seninle,***
***Sonsuzluqlar varsa seninle yürürüm,***
***Cehennem deyil, cennete bürünürüm.***
***Yazdığım şarkılar bizi yaşatıyor***
***Melekler bile bize sayğı duyor...***

**X.Hidayətqızı:**

- Bu mahnını birlikdə toyumuzda ifa etmişdik. Doğuşun "Sensiz ben ne yaparım", "Bunun adına yürək derler" mahnılarını da çox bəyənirəm.

Ümumiyyətlə, Doğuşu tanıdıqca ona daha çox valeh oluram. Çox yaradıcı insandır, bir də görürsən gözləmədiyin anda ona ilham gəlir və yeni mahnısını kəşf edir.

***- Doğuşun musiqi təhsili varmı?***

- Bu onda böyük bir vergidir. Təhsil almadan gözəl musiqi yaratmaq hər kəsə nəsib olmur. Üstəlik, mahnılarının təkcə musiqisi deyil, sözlərinin də müəllifi özü olur.

### "Oğlum efirdəymiş, sən isə məndən gizlətmisən"

***- Xoşqədəm xanım, Türkiyədə də sizin verilişi izləyirlərmi?***

- Bəli, orda da Azərbaycan kanalları tutur. Qayınanam mənim hər bir verilişimi izləyir. Hətta bir dəfə verilişdə Doğuş da iştirak edirdi, anonsların getdiyi zamanı qayınanam görür ki, oğlu da verilişdə iştirak edir. Mənə yazdı ki, qızım, Doğuş da efirdəymiş, sən isə məndən gizlətmisən *(gülür)*.



### "Dedilər, Hürrəm Sultan Doğuşu bizdən alıb apardı"

### "Doğuşun yerinə kim olsaydı, o ananı bağışlamazdı"

**Doğuş:**

- Anam mənim iştirak etdiyim bütün verilişləri izləyir. Öncədən ona xəbər verməyəndə küsür.

**X.Hidayətqızı:**

- Onun yerinə kim olsa o cür ananı bağışlamazdı. Lakin mən şahidəm ki, Doğuş hər səhər yerindən qalxanda birinci gedib anası ilə görüşüb, ondan hal-əhval soruşur.

***- Türkiyəyə gedib kifayət qədər pul qazanmaq imkanınız var ikən niyə bu qədər əziyyət çəkirsiz?***

- Bu sualı dəfələrlə Doğuş da mənə verib.

***- Bu cür bağlantının səbəbi nədir, fikirləşirsiz ki, orda bu qədər reytinq qazana bilməyəcəksiz?***

**Doğuş:**

- Əksinə, orda daha çox məşhurluq qazana biləcək. Lakin Xoşqədəm xanım burdakı insanları ümidsiz vəziyyətdə qoyub gedə bilmir. Görün, nə qədər insan ondan yardım gözləyir.

**X.Hidayətqızı:**

- Türkiyəyə gedirəm dincəlirəm, üç gündən sonra isə Azərbaycan üçün darıxmağa başlayıram. Yaxınlarım da bilir ki, ölkəmə çox bağlıyam, başqa yerdə yaşamaq mənim üçün çox çətindir... Bəlkə ömrümüzün sonlarına yaxın birlikdə hansısa ölkəyə köçüb gedə bilərik, lakin indi, xeyr.

### "İddialı, karyera düşkünü olan xanımam"

***- Bəs Doğuş bəy Azərbaycanda neçə gün qala bilir?***

**X.Hidayətqızı:**

- 15 gündür ki, burdadır.

**Doğuş:**

- Daha çox, bir aya yaxın olar.

**X.Hidayətqızı:**

- Məlum olaylar zamanı Doğuş məni tək qoymadı, hətta bəzi önəmli işlərini belə mənə görə yarımçıq qoydu. Mən çox xoşbəxt insanam ki, Doğuş vətəninə, millətinə çox bağlı insandır və Azərbaycanımızı çox sevir. Əgər Doğuşda bu qədər Azərbaycan sevgisi olmasaydı yəqin ki, bu evlilik alınmazdı. Çünki mən iddialı, karyera düşkünü olan xanımam. Mənim bu cəhətlərimi Doğuş güzəştə gedir.

### "Dedilər, Hürrəm Sultan Doğuşu bizdən alıb apardı"

***- Evliliyiniz Türkiyə mətbuatında qısqanclıqla qarşılandı...***

**X.Hidayətqızı:**

- Üç il bundan əvvəl Doğuş Azərbaycandan gedərkən belə bir söz demişdi: "Bir gün geri dönüb bir azərbaycanlı qızla evlənəcəm. Çünki mən Azərbaycanı çox sevirəm". Beləliklə, üç ildən sonra bu evlilik baş tutdu. Halbuki Doğuş o zaman məni tanımırdı. Bir dəfə Türkiyə mətbuatına belə bir açıqlama verdim: "Türkiyə də mənim vətənimdir, lakin mən Azərbaycandan ayrıla bilmərəm, buna görə Doğuş Bakıya gəlməlidir". Bu açıqlamam böyük müzakirəyə səbəb oldu və Türkiyə mətbuatında "Doğuş kimi dəliqanlını Hürrəm Sultan bizdən alıb apardı" kimi sözlər deyildi.

### "Azərbaycanlılar məndən daha çox Doğuşu sevir"

***- Azərbaycan cəmiyyətində Doğuş bəyə, yoxsa sizə qarşı daha çox rəğbət var?***

- Doğuşa. Üstəlik, buna görə onu çox qısqanıram. Birlikdə tez-tez Mir Möhsün Ağanının ziyarətinə gedirik. İnsanlar onu görən kimi yaxınlaşır, hətta məndən icazə alırlar ki, onunla şəkil çəkdirsinlər (gülür). Bir dəfə İçərişəhərdə bir xanım əlində antik bir hədiyyə bizə yaxınlaşdı. Əvvəl elə bildim ki, hədiyyə mənim üçündür. Hətta buna görə xanıma təşəkkür də etdim. Lakin xanım bildirdi ki, hədiyyə yalnız Doğuş üçündür. Yerimdəcə donub qaldım, dedim, bəs mən? Dedi ki, "Doğuşu səndən daha çox istəyirik". Azərbaycanda onun bu qədər fanatı olduğunu təxmin etməzdim.

***-Yaşınızı gizlədirsiz?***

- Xeyr, burda gizlədiləsi heç nə yoxdur. Hazırda 40 yaşım var, lakin hələ də uşaq kimiyəm, heç vaxt müdrikləşmirəm (gülür). Mənə elə gəlir ki, yenə 20 yaşındayam və yenicə "Üç nöqtə"ni yaratmışam...

❑ **Qələmə aldı: Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 109 (6137) 21 may 2015

**Paytaxtda yanan binaların üzlüklərini istehsal edən şirkətin bir neçə məmura bağlılığı olduğu ortaya çıxıb. Onlardan biri də vəzifəsindən istefa verən Beynəlxalq Bankın rəhbəri Cahangir Hacıyevdir. Məlumdur ki, mayın 19-da Bakıda düzgün seçilməyən bina fasadı ucbatından daha bir yanğın baş verib. Yanğına səbəb olan fasadların hazırlanması zamanı poliuretan maddəsindən istifadə edilib. Bu fasadları idxal edən şirkət isə "Global Construction"dır (Artıq onun rəhbəri Miryusif Mahmudov həbs edilib).**

# Üzlükləri yanan şirkəti Beynəlxalq Banka nə bağlayıb?

## "Global Construction"ı offşor şirkətlə, Xəqani Bəşirov və Cahangir Hacıyevlə çoxmilyonluq kredit birləşdirirmiş; **Pənah Hüseyn:** "Bu yanğın çox dəhşətli bir siqnal olmalıdır..."

Musavat.com-un əməkdaşı internet üzərindən axtarış aparıb "Global Construction"ın əlaqə nömrələrini əldə etsə də, telefonlar cavab verməyib. Şirkət Bakı şəhəri, A.Gəraybəyli küçəsi, 23 a ünvanda yerləşir. "Global Construction"a daxil olan "Global Stone" MMC regionda poliuretan fasad örtüyünün yeganə istehsalçısıdır.

Qeyd edək ki, bir müddət əvvəl mətbuat "Global Construction" şirkətindən yazıb. Bildirilir ki, "Global Construction"ın adı yaxın keçmişdə, 2011-ci ildə Beynəlxalq Bankdan yüz milyonlarla dollarlıq vəsaitin kredit şəklində çıxarılması və geri qaytarılmaması ilə bağlı qalmaqalda çəkilib. "General Construction" 2001-ci ildə Panamada qeydiyyatdan keçmiş "Oceanstream İNC" adlı offşor şirkət tərəfindən təsis olunub. Həmin təsisçi şirkətin sahibi azərbaycanlı iş adamı Xaqani Bəşirovdur. O, Azərbaycanda qızıl hasilatı ilə məşğul olan "Anglo-Asian Mining plc" şirkətinin səhmdarlarından biridir (16,5 faiz). "Global Stone" hələ 2011-ci ildə zavodun açılışını edib. Şirkətin partnyorları "Global Construction", "Global Light", "Poliplast" və "M-Line"dır. "Global Construction"ın saytında fasadlara və interyerə poliuretan örtüklərinin quraşdırılması xidmətlərini təqdim etdiyi yazılır. Bakıda və rayonlarda yüzlərlə bina bu üzlüklərlə üzlənib və tamamlanmamış binalar da var.

**Keçmiş baş nazir, AXP sədri Pənah Hüseyn Bakıda baş verən yanğına münasibət bildirərkən deyib ki, artıq bu yanğın çox dəhşətli bir siqnal olmalıdır:** "Bu, hətta təxribat da ola bilər, öz-özünə də yana bilər. Bu, o deməkdir ki, yay boyunca üzlənmiş binaların hər biri yana bilər. Hökumət təcili tədbirlər görməlidir. Bu işin korrupsiya ilə bağlılığının araşdırılması ilə bu iş bitməz. Təcili olaraq həmin binaların yanğın əleyhinə təhlükəsizliyinin təmin olunması ilə bağlı hökumət proqram qəbul etməlidir. Üzlənməsi davam edən binalar da var. Yanğın törədə bilən halların aradan qaldırılması üçün ciddi tədbir görülməlidir".

**P.Hüseyn hadisədə təxribat olma ehtimalına da münasibət bildirib:** "Şübhəsiz ki, istintaq bu məsələyə aydınlıq gətirməlidir. Çünki hər halda, indidən yekun fikir söyləmək doğru olmaz. Amma adıçəkilən firmanın, "Global Construction"ın üzlüklərin regionda yeganə istehsalçısı olduğu bildirilir. Onun offşor şirkətdə olan təsisçiləri meydana çıxıb. Bu da hazırda ölkədə xəbərlərin mərkəzində olan banka gəlib çıxır. Şirkətin adı Beynəlxalq Bankla əlaqədar gedən bir neçə yüz milyonluq kredit mənimsənilməsi hadisəsinə gedib çıxır. Həmçinin bugünlərdə həbs olunan keçmiş YAP-çı deputat Dünyamin Xəlilov da bu şirkətin təsisçisi olub. Bu məsələ də əminəm ki, araşdırılacaq".


Cahangir Hacıyev


Xəqani Bəşirov

Onu da qeyd edək ki, şirkətlə bağlı adı hallanan Xəqani Bəşirov eyni zamanda Lüksemburq-Azərbaycan Mədəniyyət Cəmiyyətinin yaradıcısı və sədridir. Qurum Lüksemburqda yerləşir. X.Bəşirov 1991-ci ildə ilk milli konsaltinq şirkəti olan "Vnesh Expert Service"i yaradıb. Bakı, Gəncə, Moskva, Astana, Tiflis, Paris, Lüksemburq, London və Toronto şəhərlərində nümayəndəlikləri olan şirkətin rəsmi saytında tərəfdaşlar arasında əksər nazirliklərin, o cümlədən Beynəlxalq Bankın adı keçir. Həmin il baş prokuror Zakir Qaralovun X.Bəşirovun təqsirləndirilən şəxs qismində saxlanılmasına dair verdiyi təqdimatda göstərilmişdi ki, o, Azərbaycanda və xaricdə yaratdığı çoxsaylı şirkətlər vasitəsilə Beynəlxalq Bankdan 2 il ərzində 185 milyon manat (təqribən 230 milyon dollar) kredit alıb və qaytarmayıb. O vaxt Beynəlxalq Bank Xaqani Bəşirovla ortaqlıq və qaytarılmayan yüz milyonlarla manatlıq kredit barədə heç bir izahat vermədi...

Artıq bina üzlüklərini istehsal edən "Global Construction" şirkəti bağlanıb. Daxili İşlər Nazirliyinin əməkdaşları üzlük istehsal edən sexin qapısına möhür vurublar. Şirkətin daxilində araşdırma aparıldığı bildirilir. Şirkətin sosial şəbəkələrdə olan səhifələri də bağlanıb.

**Bu arada isə ölkədə penoplast istehsalçısı olan bir şirkət üzlüklərlə bağlı yayılan xəbərlərə aydınlıq gətirib. "Mahmud Topçu K" MM IKF-nin direktoru Mahmud Topçuyev "Yeni Müsavat" qəzetinin redaksiyasına məktub göndərərək penoplast adlanan tikinti materialının ictimaiyyətə yanlış təqdim edilməsindən narahatlığını bildirib. Qəzetin redaksiyasına daxil olan məktubda deyilir:** "Üzülərək bildirmək istəyirik ki, yanmış binalarda *(daha əvvəl Nobel prospektində "Nargilə" kafesinin yanındakı yanan bina da daxil olaraq)* istifadə olunan üzlüklərin adı təhrif olunur. Bu binaların üzlənməsində poliuretandan istifadə edilib, penoplastdan deyil. Sizin xəbərlərinizdə və məqalələrinizdə materialın adı penoplast kimi ifadə olunur. Bir penoplast istehsalçısı kimi penoplastın poliuretandan tam fərqli bir material olduğunu nəzərinizə çatdırırıq. Bizim istehsal etdiyimiz penoplastın tərkibində yanğının yayılmaması üçün xüsusi qatqı istifadə olunur, bu tərkibli penoplast yanmır, əriyir. Bizim istehsal etdiyimiz penoplastın kodu *(Avropa standartlarına uyğun olaraq)* EN-13501-1 E-sinifidir. Məlumatlarınızdakı yanlışlar, fəaliyyətimizə ciddi mənfi təsir göstərir, başqa sözlə, bizə qarşı anti-reklam rolu oynayır".

❑ **RÖYA**

# "Yanğının ən dəhşətli anında körpəmi basdım bağrıma, əmizdirdim..."

## Yanğından qurtulan jurnalist Sevinc Fədai dəhşət anlarını danışır; "Yoldaşım elə bilmişdi ki, biz ölmüşük..."



**Mayın 19-da Binəqədi rayonunda yanan binada anası və körpəsi ilə birlikdə qalan həmkarımız Sevinc Fədai hazırda ev şəraitində müalicə olunur. Müvəqqəti olaraq rəfiqəsinin evinə köçən xanım jurnalist baş vermiş faciənin detalları ilə bağlı "Yeni Müsavat"ın əməkdaşı ilə söhbətləşdi.**

***- Sevinc xanım, öncə keçmiş olsun... Yanğının şokunu üzərinizdən ata bilmisizmi?***

- Yox, hələ də o stress qalıb. Amma səhhətimiz normaldır. Bizə orda tüstüdən elə bir zəhərlənmə olmayıb. Çünki içəridə olanda özümüzü çox qoruduq. Yaş dəsmal, su, qatıq içməklə zəhərlənmənin qarşısını aldıq. Yoxsa o yanğının içindən sağ çıxmaq mümkün deyildi. Özümüz bəzi müdaxilələri edirdik ki, vəziyyətdən çıxa bilək.

***- O şəraitdə, panikada bütün bunları etməyinizin özü də böyük hərəkətdir. Kənardan, telefonla hansısa məsləhətlər verən dostlar var idimi?***

- Özümüz də nələrisə bilirdik. Dostlar da məsləhət elədi. Bizdə körpə uşaq var idi deyə otaqda da termosda suyumuz var idi. Bəxtimizdən termos da olduğumuz otaqda idi. Su da çox az idi, 1 saata o su tükəndi. Yavaş-yavaş içirdik ki, su qurtarmasın. Sonra ağzımıza dəsmal tutub, hamama tərəf qaçdıq ki, su götürək. Gördük ki, suyu kəsiblər. Başa düşmürük ki, suyu kəsilməsi nəyə görə idi. Qabda-qacaqda nə qədər su qalmışdısa, ondan istifadə etdik. Aşağıdan da dostlar dedilər ki, ağzınızı yaş dəsmalla bağlayın. Biz içəridə 3 saat qaldıq.

***- Ən gec çıxarılanlardan olmusuz. Səbəb yuxarı mərtəbədə qalmanız idi?***

- Həm yuxarı mərtəbədə olmamız səbəb oldu. Həm də sonradan bildik ki, arada bizim xilas olunmağımızla bağlı yalan xəbər yayılıb. Bu aldadıcı xəbər isə bizə müdaxiləni gecikdirib. Sonra xüsusi zənglər olub, bildirilib ki, 13-cü mərtəbədə qalan var. Mən özüm də yanğın güclənmədən qapını açıq qoymuşdum ki, gələn olsa içəri keçə bilsin. Amma bununla belə, yanğın sakitləşəndən sonra gələn yanğınsöndürənlər qapını aça bilmirdilər, mən yenidən açdım.

***- Yanğın xəbərini alan kimi nə etdiz? Binada nələr oldu?***

- Elə böyük səs-küy yox idi. Koridorda idim, eşitdim ki, qonşulardan kimsə "yanğınsöndürən çağırın" deyir. 12-ci mərtəbədən səs gəlirdi. Açdım qapını, gördüm üzbəüz qonşu da donub qalıb. Nə qədər soruşdum ki, "xala, nə olub", donub qalmışdı, cavab verə bilmirdi. Qadına dedim ki, içəri keçin, siz də 102-yə zəng vurun, mən də vuracam. Amma aradan bir dəqiqə keçəndən sonra bloka çıxanda gördüm ki, hər tərəfi tüstü bürüyüb. İçəri qayıdanda gördüm ki, artıq mətbəximiz də yanır. Mənim heç amanım da olmadı ki, harasa zəng vurum. Sonra Mövluda *(həyat yoldaşı, jurnalist Mövlud Mövlud -S.T.)* zəng vurdum ki, ətrafındakıların hamısı jurnalistdir, hamıya xəbər verə bilər.

***- Evdə olan ananız, siz və balaca körpəniz bir otağa sığındız?***

- Bir otağa sığındıq. Bizdə iki balkon idi. Bir tərəfdən mətbəx yandı, 15 dəqiqə sonra isə yataq otağının balkonu yandı. Onda çox qorxduq. Çünki qapqara tüstü hər iki tərəfdən otağa daxil olurdu.

***- Xilas anını necə xatırlayırsız?***

- Onlar gələndə yanğın sönmüşdü. Anamla mən pəncərələri açdıq ki, hava dolsun içəri. Mən qorxurdum ki, partlayış ola bilər. Çünki yanğın sönmüşdü, amma bir az keçəndən sonra görürdük ki, yenidən başlanır, içəri tüstü dolurdu...

***- 40 günlük oğlunuz Ucalı sakitləşdirmək, onu tüstüdən, yanğından qorumaq üçün nələr etdiniz?***

- Yanğının pis vaxtında onu basdım sinəmə, əmizdirdim ki, ağzına, burnuna tüstü dolmasın. Yellədik. Uşağın da dəsmalla burnunu silirdik. Onun da ağız-burnu qapqara idi tüstüdən, bizimki də..

***- Həkim müdaxiləsi, müayinəsi oldumu? Körpənin, özünüzün durumu necədir?***

- Bizdə ancaq psixoloji təsirdir. İçəridə olanda müdaxilələr olmuşdu, ciyərlərimizdə zədələnmə olmamışdı. Mənə sistem köçürdülər. Körpəyə də oksigen verdilər.

***- Evə nə zaman qayıdacaqsız? Bildiyimə görə, ev şəxsi deyildi, kirayədə qalırdız...***

- Bəli, kirayə idi. Nəinki o evə qayıtmaq, uzun müddət bina evində qala bilmərik. Bundan sonra kirayə də olsa, həyət evində qalacağıq. Onun qorxusu, stressi bizə bəsdir. Mətbəxin əşyaları, pal-paltarlar zədələnib. Amma mebellər-filana hər hansı ziyan dəyməyib.

***- Bina sakinləri ilə artıq danışıqlar başlanıb, kompensasiyalar ödənilir. Sizinlə danışılıbmı?***

- Xeyr, bizimlə danışılmayıb. Hələ biz də özümüz maraqlana bilməmişik. Çalışıram ki, mətbuata çox baxmayım. Dünən axşam saytlardakı xəbərlərə baxanda bu hadisəni bir daha yaşadım sanki. O boyda hadisədə özümüzü möhkəm tutmağa çalışmışdıq, amma xəbərləri, fotoları görəndə sarsıldım.

***- Qonşular arasında uşağını itirən, özü dünyasını dəyişənlər var. Onlardan hansınısa şəxsən tanıyırdızmı, əlaqələriniz var idimi?***

- Biz burada kirayənişin idik, özümüz də səhər işə gedib, axşam gəlirdik. Qonşularla elə bir əlaqəmiz yox idi. Ancaq üzbəüz dəkilərlə ünsiyyətimiz olmuşdu. Onu da axşam öyrəndim ki, iki bacı dünyasını dəyişib. İndi hər şey yuxu kimi gəlir ki, anam, mən, körpə 3 saat boyunca orda necə sağ qalmışıq. Amma indi bütün hisslərimi, qorxunu, dəhşəti üstələyən bir hiss var. O da şükür hissidir. O körpələrin ölümünü düşündükcə adam dəhşətə gəlir. Ən balaca sakin də bizim evdə idi - 40 günlük körpə idi. Allah qorudu, şükür...

***- Ən çox kimdən dəstək və yardım aldınız?***

- Bütün dostlar sağ olsun. Telefonuma zəng çatdığı ana qədər hamısı axtarırdı, dəstəyini bildirirdi. Rəfiqəm Humay zəng vururdu ki, sizə görə FHN-in işçilərini göndəriblər, gələcəklər. İmdad Əlizadə bizə dedi ki, yaş dəsmalı ağzınıza tutun... Bu məsləhətin sayəsində sağ qaldıq həm də. Elnur, Günel, Çingiz Özgür... hamısı, hamısı son ana qədər axtardılar. Yüzlərlə zəng gəlirdi, amma şəbəkə itirdi deyə bəzən cavablamaq olmurdu. Anam mənim ağzıma yaş dəsmal tuturdu, mən onun. O biri tərəfdən uşağı yelləyirdik ki, ağlamasın... Axırdan-axıra telefonlara cavab verə bilmədim, sonradan isə zəng çatmadı. Zəng çatmayandan sonra dostlar çox narahat olmuşdu. Mövludun özü zəng çatmadığını görən kimi oturub kənarda ağlayırmış. Elə bilibmiş bizə nəsə olub. İçəridə yanğın başqa cür idi, bayırdan isə çox dəhşətli görünürdü. Ona görə də hamı bir ağızdan deyirdi ki, ordan sağ çıxan olmaz. Mövlud da deyir ki, o sözləri eşitməmək üçün ordan qaçmışdım. Binaya qaz çəkilməyib. Elə buna görə çox adam sevinirdi ki, yaxşı ki, qaz olmayıb, yoxsa əlavə partlayış baş verə bilərdi. İndi eşidirəm ki, gah zibil yanmasından, gah da işıq sistemi quraşdırmaqdan olub. Versiyalar çoxdur. Yanğının başlaması ilə böyük masştabı əhatə etməsi bir oldu. Cəmi bir dəqiqənin içində oldu hər şey...

❑ **Sevinc TELMANQIZI**



# Yanğında təxribat izi

**Samir SARI**

**Abid Şərifovun Bakıdakı müdhiş yanğının nəticələrinə dair danışığına qulaq asarkən bir detala fikir verdim və bu qərara gəldim ki, nə qədər olmasa da, Abid müəllim itizəkalı və vicdanlı adamdır.**

Baş nazirin müavini yanğın zamanı xəsarət alan şəxslərin xəstəxanaya yerləşdirilməsindən danışdığı yerdə dedi ki, onlardan 35 nəfəri xəstəxanada müalicə olunduqdan sonra (pauza) buraxılıblar və (pauza) hara lazımdır, ora gediblər.

Bunu bilmək çətin deyildi, Abid müəllim çıxışı zamanı verdiyi pauzaların yerində "evə buraxılıblar" deyəcəkdi, iti ağlı kəsdi ki, artıq ev deyilən bir şey yoxdur, ona görə də sözünün dalını gətirmədi, "hara lazımdır, ora" dedi. Əslində o, vicdanlı adam olmasaydı, deyərdi ki, yanğından zərər çəkənləri öz evlərindən də yaxşı villalara, sanatoriyalara yerləşdirəcəyik.

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov isə təxminən elə deyib. Nazir evi, eşiyi, əşyaları, sənədləri, hər şeyi, eləcə də bağrı yanmış sakinlərin yerləşdiriləcəyi kotteclər barədə danışarkən deyib ki, camaat yayda gedir, pul verib oralarda istirahət edir, gül kimi rahat yerlərdir.

Yəni şadlığınıza şitlik eləməyin, siz Binəqədidə kottec görmüşdünüz, gül kimi istirahət məkanlarında yaşayacaqsınız. Əslində sakinlərə paylanılan 1000 manatı da onların başına qaxa və deyə bilərdi ki, ilk bir ayda sizə xidmət "hər şey daxil" statusunda olacaq.

Ancaq cənab nazir camaata bundan artıq minnət qoymayıb. Bu da göstərir ki, o da vicdanlı adamdır.

Bakı şəhərinin rəhbəri Hacıbala Abutalıbovun nə dərəcədə vicdanlı adam olmasını uzun-uzadı iddia və sübut etməyə ehtiyac yoxdur. Onu hamı tanıyır. O da yanğından zərərçəkənlərə təsəlli, təskinlik, türkün sözü, moral verərkən deyib ki, sakinlərə dəymiş bütün ziyanlar, o cümlədən maddi, mənəvi ziyanlar ödəniləcək.

Əlbəttə, maddi ziyanı ödəmək asandır, adamın evi yanıb, ev təmir ediləcək, əşyaları yanıb, alınıb veriləcək. Bəs əzizlərini, ailə üzvlərini itirən, dünyası qaralan insanlara dəymiş mənəvi, psixoloji zərəri necə ödəmək olar, görəsən?

Yaxşı, bunun üstündən keçdik, BŞİH-in "yanan binanın bizə aidiyyatı yoxdur" deyə o gün bir səfeh açıqlama ilə çıxış etməsini necə qiymətləndirmək olar? Harda bir üzlük-müzlük dəyişdirilir, mütləq orda aşağıdakı məzmunda lövhə asılır: **"Binaların fasadlarında və dam örtüklərində aparılan təmir-bərpa işləri BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİ (özləri belə böyük hərflərlə yazırlar) tərəfindən aparılır. Müvəqqəti narahatçılığa görə üzr istəyirik".**

Belədirsə, rəhmətliyin nəvələri, yaxanızı necə qırağa çəkə bilərsiniz? İti öldürənə sürüdərlər, binaların yanmasına siz səbəb olmusunuz, zəhmət çəkin, cavab verin.

Fasadları plastik üzlüklərlə bəzənmiş 140 binanın yenidən yoxlanması məsələsi isə adamın gözünə bir az vicdansızlıqmış kimi görünür. Axı Xətaidə və Binəqədidə binaların çırtaşırtla, od düşmüş pambıq tayası kimi yanmasına səbəb olan üzlüklərin hamısı bir zavodda istehsal olunub, necə deyərlər, eyni təzəkdir. Necə ola bilər ki, Xətaidə alışıb yanan təzək Yasamalda odadavamlı olsun? Yaxud, bəlkə Binəqədidə hava şəraiti elədir ki, plastik üzlüklər orda odadavamlı ola bilmir, amma yüz metr bu tərəfdə, Nəsimidə odadavamlı olacaq?

Şəkkak adamlar deyirlər ki, məqsəd yenə də bu dəhşətli hadisəni bəhanə edərək kimlərisə sağmaq, pul toplamaqdır, 10-15 gündən sonra bu dəhşətli yanğın hadisəsi də unudulacaq, tutulanlar buraxılacaq, cinayətin üstü ört-basdır ediləcək.

Keçmişdə belə haqq-hesablar çox olub deyə, xalq hər şeydən quşqulanır.

İndi baş vermiş faciəvi hadisəyə görə təxribat amili axtaran, hətta artıq tapanlar da var. Bu işdə təxribatçıların rolu gerçəkdən də danılmazdır. Bu da binaları plastik üzlüklərlə üzləmək ideyasını verənlər, o keyfiyyətsiz üzlükləri inşaatçılara sırıyanlar, onun keyfiyyətsiz olduğunu bilə-bilə alıb fasadları bəzəyənlərdir. Bundan böyük təxribat ola bilməz.

Bu üzlüklər dəb olmazdan öncədə binalarda yanğın olurdu da, söndürülürdü də. Yanğından sonra baxırdıq ki, 4-cü mərtəbədə iki ev qaralıb, 5-ci mərtəbədə bir ev hislənib, vəssalam. İndi binalar kibrit qutusu kimi yanır. Bunun səbəbi də hər kəsə bəllidir. Heç kəs də dağa-daşa düşüb, ordan-burdan əbəs yerə nümunə-filan götürməsin.

# Yanğın zamanı sağ qalmaq üçün nə etməli...

## Fəlakətlər zamanı daha çox ziyan çəkənlər məhz təlaşa düşənlərdir

**Ötən gün paytaxtın Binəqədi rayonunda 16 mərtəbəli yaşayış binasında baş verən dəhşətli yanğın 15 nəfərin dünyasını dəyişməsi və 60 nəfərdən çox insanın xəsarət alması ilə nəticələndi. Faciə zamanı ölü və yaralı sayının çoxluğu göstərdi ki, Azərbaycanda aidiyyəti qurumlarla yanaşı, əhali fövqəladə vəziyyətlərə tam hazır deyil.**

**Yanğın hadisələri zamanı hansı qaydalara əməl etmək lazımdır?**

**Tibb elmləri doktoru Adil Qeybulla mövzu ilə bağlı məlumat verərək bildirdi ki, belə məqamlarda insanlar üçün yanğından daha təhlükəli olan təşviş düşərək yanlış addımlar atmaqdır:** "Belə yanğınlarda ən təhlükəli məqam yanğınla yanaşı, həm də yanan maddələrdən əmələ gələn kimyəvi toksiki maddələrdir. Bunlar özləri həddən artıq zəhərli maddələrdir. Bu hadisəyə diqqət yetirsək, zərərçəkənlərin içində xeyli adam zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdirilib. Ona görə də insanlar bu cür hadisələr olanda panikaya düşməməlidirlər. Bir çoxları məhz qorxu hissinin təsiri ilə dəhlizə qaçıb və oradakı güclü tüstüdə boğulub, hətta təşvişə düşərək özünü binadan atanlar da olub. Bu səbəbdən ilk növbədə insanın ayıq başla hərəkət etməsi lazımdır. Evində oturub, təhlükəsizlik tədbirləri görərək xilas olmasını gözləyən insanlar isə daha az xəsarətlə bu hadisədən xilas olublar. Yaxşı olar ki, insanlar bu zaman əllərinin altında olan vasitələrdən istifadə edərək maska düzəldib ağızlarına bağlasınlar, əgər varsa respiratorlardan istifadə etsinlər. Evdəki adi cunanı da bir neçə qat dolamaqla zəhərli maddələrin nəfəs yoluna getməsinin qarşısını almaq olar. Evlərdə ehtiyat üçün oksigen maskası olsa daha yaxşı olar".



**Ekspert bildirdi ki, əgər yanğın xaricdədirsə, bu zaman ilk iş alovun və zəhərli tüstünün daxil olduğu yerləri bağlamaq olmalıdır:** "Tüstünün daxil olduğu bütün girişlər bağlanmalıdır ki, otaqdakı oksigen uzun müddət qala bilsin. Yanğının daxil ola biləcəyi yerlərə isladılmış parça və ya mələfə asmaq olar ki, alovların qarşısını alsın. Bu, yetkin bir insanın edə biləcəyi təhlükəsizlik tədbirləridir. İnsanlar təşvişə düşüb, bu tədbirləri görməyiblər. Pəncərələr açıq olduğundan qatı tüstü bir anda evlərə dolub. Əksəriyyəti qapını açıb dəhlizə çıxmaq istəyib ki, bu da evlərə zəhərli tüstünün daha tez daxil olmasına səbəb olub. Əgər yanğın evin içində olsa yenə də pəncərələr, nəfəsliklər dərhal bağlanmalıdır. Çünki evə daxil olan oksigen yanğının daha da güclənməsinə səbəb olur".

**A.Qeybulla bildirdi ki, zəlzələ və digər təbii fəlakətlər zamanı da ölənlərin əksəriyyəti məhz təlaşa düşənlər olur:** "Belə hallarda sakitliyi qorumaq, evdəki bütün nəfəslikləri bağlamaq, yanğının, tüstünün evə girməsinin qarşısını almaq və gözləmək lazımdır. Yalnız xüsusi evakuasiya vasitələri yaradıldıqda və göstəriş olduqda evdən çıxmaq olar ki, bu da ərazidəki təhlükəsizlik işçilərinin nəzarəti altında həyata keçirilməlidir. Əgər mənzildə yanğını söndürməyə çalışırsınızsa, yanan yerə su tökün və ya isladılmış xalça, yorğanla örtün. Evdəki bütün elektrik cihazlarını şəbəkədən ayırmaq lazımdır. Yanan elektrik cihazlarını yalnız cərəyandan ayırandan sonra söndürmək olar. Əgər binadan düşməyə cəhd etmək istəyirsə, bu zaman insanlar döşək ağından, pərdələrdən istifadə etməklə məsafəni azaltmalıdırlar ki, ciddi xəsarət olmasın".

❑ **Nərgiz LİFTİYEVA**

# Xətaidəki yanğının tələfatsız ötüşməsinin şok səbəbi - korrupsiya...

## Binanın yalnız yola baxan hissəsinin üzlənməsi insanları xilas edib

**Son bir ayda paytaxt Bakı şəhərində iki binada güclü yanğın baş verdi. Aprelin 10-da Xətai rayonu ərazisində iri yaşayış binasında, mayın 19-da isə Binəqədi rayonu Azadlıq prospektində yerləşən 289 N-li binada dəhşətli yanğının hansı səbəbdən baş verməsini yaradılmış dövlət komissiyası araşdırır. Lakin hər bir halda fakt faktlığında qalır ki, binaların hər ikisi tez alışan kimyəvi tərkibli penoplastla üzlüklə üzlənibmiş.**




Yaşayış binalarının bu şəkildə üzlənməsinin zərərli və təhlükəli olduğunu illərdir ekspertlər bəyan edir, mətbuat yazır. Mütəxəssislər dəfələrlə xəbərdarlıq ediblər ki, yaşayış binalarında bu tez alışan materialların istifadəsi minlərlə insanın həyatını təhlükəyə atır.

Diqqətçəkən daha bir məqam ondan ibarətdir ki, Xətai rayonunda yaşayış binasındakı yanğın zamanı xoşbəxtlikdən həlak olan olmamışdı. Binəqədi rayonundakı binada yanğın isə təəssüf ki, çoxlu sayda sakinin faciəli ölümünə və yaralanmasına səbəb oldu. Mütəxəssislərin fikrincə, nə qədər qəribə görünsə də Xətai rayonundakı binadakı yanğında insan itkisinin olmaması da dolayısı ilə korrupsiya, təmir-tikinti işlərindəki yeyinti ilə bağlıdır. Həmin bina penoplastla üzlənən zaman dövlətə kələk gəlinib, yeyintiyə yol verilibmiş. Binanın dörd tərəfdən üzlənməsi nəzərdə tutulsa da yola baxan tərəfi üzlənibmiş, binanın bloku olan arxan tərəf yoldan görünmədiyi üçün üzlənməyibmiş. Şəhərin bir çox ərazilərində bu cür "təmir" olunan binaların çox olduğunu hər kəs bilir. Mütəxəssislər bildirir ki, Xətai rayonundakı binada yanğın binanın penoplastla üzlənən ön hissəsində baş verməsi və binanın blok olan arxa hissəsində penoplast üzlüyün yoxluğu alovun binanın çıxış hissəsini sarmaması ilə nəticələnib. Bloku alovun sarmaması sakinlərin evlərini tərk etməsi və heç bir ölüm hadisəsinin baş verməməsində rol oynayıb. Həmin bina da Binəqədi rayonundakı bina kimi dörd tərəfdən penoplastla üzlənmiş olsaydı, orada da faciə qaçılmaz olacaqdı. Şükürlər olsun ki, binanın çıxış hissəsi üzlənməyibmiş. Korrupsiyanın, yeyintinin, dövlətə fırıldaq gəlmənin nə qədər qəribə olsa da bəzən bu cür təsirləri də olur.

Artıq ölüm saçan üzlüklər şəhərin bir sıra yerlərində binalardan sökülür. Bu belə də olmalıdır. İqtisadçılar isə diqqəti bir məsələyə yönəldirlər ki, bu üzlüklər təhlükə mənbəyi olduğu üçün sökülür, bəs onların alınması, üzlənməsi üçün dövlət büdcəsindən ayrılmış yüz milyonlarla manat vəsaitin əvəzini kimsə ödəyəcəkmi. Axı kimlərsə dövlətə, xalq vurduğu bu ziyanı ödəməlidir. Şəhərdə yüzlərlə bu cür bina var ki, həmin üzlüklər dövlət büdcəsinin hesabına oraya vurulub. Binəqədidə yanan binaya üzlük o binada ölənlərin, onların qohumlarının-qonşularının ödədikləri vergilər hesabına üzlənirdi. Dövlət vəsaitini bu şəkildə talan edən icra hakimiyyəti orqanlarından hesab sorulmalı deyilmi? Bu işlərə cavabdeh olan icra başçıları, pulu ayıran Maliyyə Nazirliyi niyə yoxa çıxıb? Hanı dövlət vəsaitlərinin səmərəli xərclənməsinə nəzarət edən Hesablama Palatası?

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 109 (6137) 21 may 2015

**Mayın 19-da Binəqədi rayonu, Azadlıq prospektindəki binada baş verən yanğının hansı səbəbdən baş verməsi barədə hələ ki müxtəlif versiyalar var. Baş prokuror Zakir Qaralov ilkin ehtimal kimi yanğına binaya vurulan keyfiyyətsiz üzlüklərin səbəb olduğunu deyib, lakin digər versiyalar da araşdırma predmetidir.**

# Yanan binada təxribat izinin olub-olmaması araşdırılır

Hətta hadisəni 12-28 iyun tarixlərində Bakıda keçiriləcək 1-ci Avropa Oyunlarına qarşı təxribat kimi dəyərləndirənlər də var. Eyni zamanda olayın Riqa sammiti ərəfəsinə təsadüf etməsi də şübhələr doğurub. Yeri gəlmişkən, qəzetimiz bir müddət öncə ölkədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsindən bəhs edən yazılar dərc etmişdi və terror təhlükəsinə qarşı ayıq-sayıqlığın artırılmasının zəruriliyini qeyd etmişdi. Azərbaycan maraqların toqquşduğu nöqtədə yerləşdiyi üçün bütün ekstremal situasiyalara hazır olmalıdır. Odur ki, son hadisə fərqli versiyaları ortaya çıxarıb. Modern.az saytı təxribat versiyası ilə bağlı **Milli Təhlükəsizlik Nazirliyindən (MTN) mövqe öyrənməyə çalışıb. Nazirliyin İctimai əlaqələr mərkəzinin rəhbəri Arif Babayev** bildirib ki, hadisənin təxribat olub-olmadığı barədə ictimaiyyətə məlumat veriləcək: "Yanğın hadisəsinin təxribat olub-olmaması barədə yanğınla əlaqədar yaranan dövlət komissiyasının sədri açıqlama verəcək". Qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyev baş vermiş hadisənin araşdırılması üçün dövlət komissiyasının yaradılması haqqında sərəncam imzalayıb və istintaq işləri davam edir.

**Sabiq milli təhlükəsizlik zabiti Ərəstun Oruclu özünün facebook səhifəsində bununla bağlı aşağıdakıları yazıb:** "Dünənki *(19 may-C.T.)* dəhşətli faciənin işıqlandırılmasında statist rolunu oynayan bəzi "media" qurumları bu gün var gücü ilə işə düşəcək. İşləyəcəkləri versiya isə təxribat olacaq yəqin ki: Riqa sammiti, Bakıda keçirilən beynəlxalq konfrans və s. Adətən belə versiyaları da cəmiyyətə müstəqil və müxalif insanların dili ilə sırımağa çalışırlar. Odur ki, öz tərəfimdən bu faciənin həqiqətən də təxribat olduğunu təsdiqləyirəm və bu təxribatın da adı korrupsiyadır, acgözlükdür, soyğunçuluqdur, cinayətkar məsuliyyətsizlikdir, ölkənin qanuni sahibi olan insanların həyatına və taleyinə aşağılayıcı münasibətdir".

**Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü, deputat Zahid Oruc isə fərqli fikirdədir:** "Yanğının terror hadisəsi olması haqqında təhlükəsizlik və mühafizə orqanlarının açıqlaması olmadan, yalnız versiyalara əsaslanıb fikir yürütmək cəmiyyətdə xofu gücləndirə bilər. Onsuz da bütün müsbət və mənfi hadisələri qarşıdakı mühüm beynəlxalq tədbirin kontekstində nəzərdən keçirməyə kütləvi bir meyl yaranıb. O üzdən təxribatların cansız binaların cismindən birbaşa adamlara doğru yönələ biləcəyini söyləmək, müxtəlif strateji obyektlərə və ya insanların toplaşdığı kütləvi yerlərə istiqamətlənəcəyini ehtimal etmək, bunu mediada tez-tez gündəmə gətirmək əslində ölkəmizin sabitliyi əleyhinə olanlara xidmət edən addım olar. Çünki məhz kəşfiyyat strukturları müxtəlif vasitələrlə, həm də bunu cəmiyyətdə qorxu yaratmadan həyata keçirməklə bədgüman anonsların, ölüm saçan öncəgörmələrin doğru olmadığını ortaya qoymalıdırlar. Bütün hallarda baş vermiş faciə zamanı millətimiz elan olunmamış matəm hissini yaşadı, insanlarımız qibtə ediləcək mütəşəkkillik və həmrəylik nümayiş etdirdilər". **Z.Oruc deyir ki, ən başlıcası insanlarımız xaotik hərəkətlərə, başıpozuq cəhdlərə və bütünlükdə Azərbaycanı öz cənginə ala biləcək təhlükələrə səbəb ola biləcək davranışlara yol vermədilər:** "Bəli, xalqımız keçmişdə yaşadığı dərdlər üzündən ağır günlərdə birləşməyi bacarır. Dünən hər kəsin içində yaşatdığı yanğı bizi indi ittihamedici bir tonla onlarla məsulu, təşkilatı, medianı ,yaxud şəxsi günahlandırmaq hissindən uzaq tutur, laqeydliyin deyil, çətin anda bir-birinə sarılan əllərin xilas yolumuz olduğunu bir daha nümayiş etdirir. Baxın, dövlət başçısı bütün ağrını yenə öz üzərinə götürdü, qarşılıqlı ittihamlara və günahkar axtarışlarına "samosud"la deyil, hüquqi bir yanaşma sərgilədi və yenə də usanmadan, bu ölkəni qurub yaratmaqda davam edəcəyi əzmini sübuta yetirdi. Lider iradəsini göstərirsə, vurulan yaralara qatlaşaraq təmkinlə ona sinə gərirsə, bizim hər birimiz ona yardımçı olmalıyıq. Mən prezidentimin yanında olacam".

**❑ Cavid TURAN**



**Ərəstun Oruclu:** "Bu təxribatın adı korrupsiyadır, acgözlükdür, soyğunçuluqdur, cinayətkar məsuliyyətsizlikdir"



**Zahid Oruc:** "Hüquq-mühafizə orqanlarının açıqlaması olmadan, yalnız versiyalara əsaslanıb fikir yürütmək cəmiyyətdə xofu gücləndirə bilər"



## Yanan binanın sakinləri Bilgəhdəki sanatoriyalara getməyib

**"Yanğınla əlaqədar evsiz qalan bütün sakinlər müvəqqəti olaraq evlə təmin ediləcək". Bunu Bakıda yanğın baş verən yaşayış binasının sakinləri ilə görüşündə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov deyib. H.Abutalıbov bildirib ki, yanğın səbəbindən evsiz qalan bütün sakinlər müvəqqəti olaraq evlə təmin ediləcək: "Evləri tam yanmış bütün sakinlər ayrı-ayrı yerlərdə - 10 xüsusi villa, koteclər, eləcə də sanatoriyalarda müvəqqəti yerləşdiriləcək".**



Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov isə deyib ki, ailələr yeməklə və geyimlə təmin olunacaq. Eyni zamanda hər bir ailəyə 1000 manat məbləğində ilkin kompensasiya ayrılıb.

Əməkdaşımız Sabunçu rayonu, Bilgəh qəsəbəsindəki sanatoriyalara yanan binaların sakinlərinin getmədiklərini dəqiqləşdirə bilib. Sabunçu İcra Hakimiyyətinin Bilgəh qəsəbəsi üzrə nümayəndəliyindən də yanmış bina sakinlərinin onlar üçün ayrılan yaşayış yerlərinə gəlmədiklərini deyiblər. Redaksiyamıza daxil olan məlumata görə, yanan binanın sakinləri Binəqədi ərazisində mənzillər kirayələməklə yanğının nəticələrinin aradan qaldırılmasını gözləməyə qərar veriblər. Bundan sonra onlar mənzillərinə köçəcəklər.

Qeyd edək ki, mayın 19-da Bakıda yaşayış binasında baş vermiş yanğın zamanı ölənlərin sayı 15 nəfərə çatıb, xəsarət alanlar isə 50 nəfərdir.

**❑ E.HÜSEYNOV**

# Məlahət Mürşüdlü Müsavatdan çıxmasının səbəblərini açıqladı

## Məclis üzvü ADR-də fəaliyyətini davam etdirəcək; Müsavat funksioneri istefadan mətbuat vasitəsilə xəbər tutub

**Müsavat Məclisinin üzvü Məlahət Mürşüdlü partiya sıralarından istefa verib. Məlahət xanım partiyadan çıxmasını müsavatçılıq ideologiyasına zidd siyasətin aparılması ilə əsaslandırıb.**

**M.Mürşüdlü** istefa ərizəsini üzvü olduğu Nizami Rayon Təşkilatına təqdim edib: "Son dövrlərdə müsavatçılıq ideologiyasına zidd siyasətin aparılmasına, idarəçilikdə nizamnaməyə əməl edilməməsinə etiraz əlaməti olaraq, partiyadan istefa verirəm. Partiyanın adına layiq yaşaması, haqsızlıqlara qarşı dirəniş göstərmədiyim üçün Məhəmməd Əmin Rəsulzadə ruhu məni bağışlasın! Amma harada olmağımdan asılı olmayaraq Müsavat və M.Ə.Rəsulzadə ideallarının daşıyıcısı kimi yaşayacağam və fəaliyyət göstərəcəyəm".



Məlahət Mürşüdlü



Elman Fəttah

**"Yeni Müsavat"a açıqlamasında Məclis üzvü partiyada qalmağın mümkünsüz olduğunu bildirdi:** "Qurultay vaxtı mən iştirak etmirdim. Kiprdə konfransda idim. Qurultayda nə olubsa, o barədə fikir yürüdə bilmərəm. Amma qurultaya qədər müəyyən çatışmazlıqlar var idi. Yeni başqanlığa namizəd Qubad İbadoğluna qarşı olan hissələri nəzərdə tuturam. Qurulaydan keçən bu müddət ərzində anti-Müsavat, antinizamnamə kampaniyası aparıldı. Bu, davamlı sürətdə təkrarlandı. Partiyada böyük əməyi olan, öndə gedən şəxslərin səsləri eşidilmədi. Etirazlara cavab verilmədi. Bu müddət partiyada bağlı qapını xatırlatdı. Qapı döyülürdü, içərindən cavab verən yox idi. Axırıncı olaylar hər şeyin sübutu idi. Partiya qarşısında olan nüfuzundan, əməyindən asılı olmayaraq, istənilən şəxsin çıxarılması mümkündür. Bunun əleyhinə deyiləm. Amma hər şey qanun çərçivəsində nizamnaməyə uyğun şəkildə olmalıdır. Müsavat ideologiyasına, Rəsulzadənin ideallarına zidd olan hərəkətlərə yol verildi. Yaranmış situasiya mənə imkan verdi ki, bu addımı atım. Amma mən qurumdan getmişəm. Müsavat məndədir, müsavatçılığı heç zaman tərk etmərəm. ADR-də fəaliyyətimi davam etdirəcəm. Ərizəmi təşkilat katibinə təqdim etdim. Çox israr etsə də, başqa yolum yox idi. Qalmaq üçün bir əsas görmədim. Elə bir insanam ki, daim cəmiyyətə faydalı olmaq istəyirəm. Bu potensial məndə var. Onu bu cəmiyyətə sərf etmək istəyirəm. Əqidədaşlarıma qarşı olanlara görə bu addımı atmağa məcbur idim və atdım".

**Müsavat başqanının müavini Elman Fəttah mətbuatdan istefa barədə xəbər tutduğunu qeyd etdi:** "Yayılan xəbər həqiqətdirsə, uğurlar arzulayıram. Mən mətbuatda tanış oldum. Atılası bir addım yoxdur. Çünki artıq istefa verib. Nədən çıxdığı barədə məndə məlumat yoxdur".

**❑ Cavanşir ABBASLI**

# Arıqlamaq insanı öldürə bilər...

## **Adil Qeybulla:** "Çəki azaltmaq üçün preparatların reklamı qadağan olunmalıdır"

**Qarşıdan yay fəsli, çimərlik mövsümü gəlir. İnsanlar çəkilərinə yay aylarında daha çox diqqət edir, qışda aldıqları kiloları verməyin yollarını axtarırlar. Televiziyalarda, saytlarda, qəzet səhifələrində arıqlamaq üçün dərmanlar, cihazlar, xüsusi geyimlər reklam olunur. Dünya əhalisinin təxminən 60 faizi bu problemlə mübarizə aparır. Hamıya məlumdur ki, artıq kilolar sağlamlıq baxımından orqanizmə zərərlidir. Bu, ümumən orqanizmin funksiyasının pozulmasına gətirib çıxarır.**



Digər tərəfdən, qara ciyərin piylənmə nəticəsində vaxtından əvvəl sıradan çıxması təhlükəsi yaranır. Ağciyərin effektiv işləməsinə əngəl törədilir və insan təngnəfəslik problemi ilə qarşılaşır. Rəsmi statistikaya görə, kök adamlar arıqlara nisbətən 6-7 il az yaşayırlar. Ancaq həddən artıq arıqlamaq da səhhətdə problemlər yaradır. Çox zaman xanımlar, hətta kişilərin də bir qismi arıqlamaq üçün kortəbii yollara əl atır. Bu gün apteklərdə arıqlamaq üçün xüsusi preparatların, çayların satıldığı hər kəsə məlumdur. Qiyməti 30 manatdan başlayıb 100 manatadək dəyişən bu preparatları bəzən bitki mənşəli vasitələr kimi sırıyırlar. Çox zaman artıq çəkidən əziyyət çəkən insanlar heç bir həkim məsləhəti almadan bu dərmanlar vasitəsilə arzuladıqları çəkiyə sahib olmağa çalışırlar. Ancaq nəticədə sağlamlıqlarını itirirlər. Bəzən isə bu tip preparatlardan mütəmadi istifadə ölümlə nəticələnir. Bəlli dərmanlar ilk vaxtlarda insanı arıqlatsa da, bu, müvəqqəti xarakter daşıyır. ABŞ və bir sıra Avropa ölkələrində aparılan araşdırmalar zamanı arıqlamaq üçün olan preparatların tərkibində sağlamlığa ziyan vuran bəzi vasitələrin olması sübut edilib. Həkimlər bu cür dərmanların infarkt və insult xəstəliklərinin inkişafına zəmin yaratdığını bildiriblər.

Dietalardan bezib daha tez və qısa zamanda arıqlamaq istəyənlər isə son çarəni bıçaq altına yatmaqda, əməliyyatda görür. Arıqlamaq üçün əməliyyatlara gəlincə isə bunlar da müxtəlifdir. Mədəni kiçildərək qısa zamanda doymaq hissi yaradılır. Bağırsaqlar kəsilərək yeyilən maddələrin bir qisminin bədənə sorulmasına mane olunur. Qeyd edək ki, bu əməliyyatların da fəsadları var. Belə ki, əməliyyat nəticəsində yaranan qanama, mikrob nəticəsində bağırsaq yırtıla, yaxud tıxana bilər. Problem ortaya çıxan hər 10 xəstədən ikisində yenidən əməliyyat zərurəti yaranır. Arıqlamaq əməliyyatından sonra öddə daş yaranması asanlaşır. Bağırsaqları kəsilərək əməliyyat edilən hər 3 xəstədən birində vitamin və minerallların normal sorulmaması müşahidə olunur. Bu da özü ilə sümük əriməsi, qan azlığı problemləri yaradır. Eyni zamanda bu, əvvəl müşahidə edilməyən ürək xəstəliklərinə səbəb ola bilər. Ağciyərdə, qarında qanamalar, qarında köplük kimi problemlərə səbəb ola bilər.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla kök insanlarda doyma hissinin olmadığını bildirdi:** "İnsanların əməliyyat və ya dietik dərmanlar vasitəsilə arıqlamaq seçimi həkimdən asılıdır. Həkim nəzarəti olmadan bu cür dərmanların istifadə olunması düzgün deyil. Bu vasitələrin televiziyada reklamı da qadağan olunmalıdır. Ümumiyyətlə, dərman reklam edilə bilməz. O ancaq qanunlardakı boşluqlardan sui-istifadədir. O ki qaldı bariyatrik əməliyyatlara, yəni mədəyə kələpcə qoyulur, mədənin həcmi balacalaşdırılır. Yaxud da əməliyyat olunur və mədənin bir hissəsi kəsilib götürülür. Mədənin həcmi azaldığından həmin xəstələrdə doyma hissi formalaşır. Ümumiyyətlə, bütün kök adamlarda doyma hissi itir. Ona görə də bu insanlar həddən artıq qida qəbul edirlər. Əməliyyatın da məqsədi mədənin həcmini kiçiltmək, mədədə doyma hissi formalaşdırmaq və bununla da çəki itirilməsinə nail olmaqdır. Qəbul olunan enerji ilə sərf olunan enerji arasında fizioloji bir hiss yarana bilsin".

**A.Qeybulla xəstələrin bu əməliyyata yalnız bir neçə hal istisna olmaqla girə biləcəyini və təhlükəsiz olduğunu dedi:** "Kök şəxslər ağır xəstəlikləri olduqda əməliyyata alınmır. Həkimlər dəyərləndirirlər ki, bu xəstənin narkoz ala bilmə riski nə qədərdir. Bundan sonra əgər xəstə həmin riski qəbul edirsə, əməliyyata girir. Yəni elə hallar ola bilər ki, xəstə həddən artıq ağır olsun, onda ürək çatışmazlığı, qaraciyər, böyrək çatışmazlığı və sair xəstəliklər olsun. Belə hallarda təbii ki, xəstəyə əməliyyat məsləhət deyil".

❑ **Günel MANAFLI**

*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS English EXPLOSION *dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34



## Bakıda maşın ağaca "dırmaşdı"

**Binəqədi rayonu ərazisində ağır yol qəzası baş verib. Hadisə şahidlərinin ANS PRESS-ə verdikləri məlumata görə, hadisə 9-cu mikrorayon ərazisində qeydə alınıb. "Tərlan" şadlıq evinin qarşısında "Nissan" markalı avtomobillə "Lada" toqquşub. Qəzanın təsirindən "Nissan" markalı avtomobil yoldan çıxıb və səkidəki ağaca "dırmaşıb".**

Baş verən qəzada yaralanan barədə məlumat verilməyib.

Faktla bağlı araşdırma aparılır.

## Bir neçə bağlı yol yaxın günlərdə açılacaq

**Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC tərəfindən I Avropa Oyunları öncəsi paytaxtın bəzi küçə və prospektlərində nəqliyyat vasitələrinin rahat və maneəsiz şəkildə hərəkətini təmin etmək məqsədilə təmir-tikinti işləri davam etdirilir. Analitik.az cəmiyyətə istinadən xəbər verir ki, bir neçə küçədə aparılan yenidənqurma işləri yaxın günlərdə yekunlaşacaq.**

Yasamal rayonu Şəfayət Mehdiyev küçəsinin Tbilisi prospekti ilə kəsişməsindən Ə.Haqverdiyev küçəsi ilə kəsişməsinədək olan hissəsində yol boyu 3 min paqon-metr səki daşı düzülüb, kommunikasiya xətlərinin dəmir-beton plitələri qaldırılıb, baxış qapaqları dəyişdirilib, yağış barmaqlıqları yenilənib, səth sularının normal kənarlaşdırılması üçün zəruri yerlərdə yağış-kanalizasiya sistemi qurulub. Ümumilikdə 30 min kvadrat metr əraziyə yeni asfalt-beton örtüyü döşənəcək. Yolun uzunluğu 1700 metr, eni isə 16-21 metr arası dəyişir.

Yasamal rayonu Bəxtiyar Vahabzadə küçəsində də aparılan əsaslı təmir-tikinti işləri yekunlaşmaq üzrədir. Bəxtiyar Vahabzadə küçəsinin İnşaatçılar prospekti ilə kəsişməsindən Hüseyn Cavid prospekti ilə kəsişməsinədək olan yolda 1 min kvadrat metrlik hissədə əsaslı, 2 min kvadrat metrlik sahədə isə orta təmir işləri aparılır. Küçə boyu 600 paqon-metr səki daşı qoyulacaq. Sözügedən yolun uzunluğu 300 metr, eni isə 10 metrdir. Artıq küçənin Hüseyn Cavid prospekti ilə kəsişməsindən Mətbuat prospekti ilə kəsişməsinədək olan 520 metrlik hissəsi əsaslı təmir olunaraq sürücülərin ixtiyarına verilib. Bəxtiyar Vahabzadə küçəsində işlər tam bitdikdən sonra küçə ilə kəsişən Əhməd Cəmil küçəsinin də yenidən qurulmasına başlanılacaq.

Bu gündən etibarən Eldar Babayev küçəsinin Ziya Bünyadov prospekti ilə kəsişməsindən Hüseyn Seyidzadə küçəsinin kəsişməsinədək olan hissəsində təmir-tikinti işlərinə başlanılıb, Heydər Əliyev prospekti ilə Ziya Bünyadov prospektini birləşdirən 4 hərəkət zolaqlı Ələsgər Qayıbov küçəsində isə yenidənqurma işləri davam etdirilir.

Nəqliyyat vasitələrinin rahat və maneəsiz şəkildə hərəkətini təmin etmək məqsədilə Biləcəri qəsəbəsində bir müddətdir aparılan təmir işləri artıq yekunlaşıb. Ümumi uzunluğu 4 kilometr olan Natavan, Ordubadi, Ə.Qasımov və Y.Hüseynov küçələrində təqribən 56 min kvadrat metr sahəyə yeni asfalt-beton örtüyü döşənib, 420 paqon-metr beton səki daşları düzülüb. Bundan başqa, kommunikasiya xətlərinin dəmir-beton plitələri qaldırılıb, baxış qapaqları dəyişdirilib, səth sularının normal kənarlaşdırılması üçün zəruri yerlərdə yağış-kanalizasiya sistemi qurulub.

Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC müvəqqəti narahatlığa görə sürücülərdən üzr istəyir və görülən işlərə anlayışla yanaşmalarını xahiş edir.

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**

**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**

**(055) 740-25-64 Anar**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**